Xalqın qəzeti!

# Xalq qəzeti

№ 151 (30555) 20 iyul 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycanın ardıcıl və prinsipial sülh çağırışları

*Sözümüzü Asiyada da açıq deyirik, Avropada da*




Səhifə ⇨ 4

## Bu gün II Şuşa Qlobal Media Forumu öz işinə başlayır

**İyulun 20-22-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumu keçiriləcək.**



Müasir informasiya mühitində dezinformasiyanın sürətlə yayılması inkişaf və qlobal sabitlik üçün ən əsas təhdidlərdən biri hesab edilə bilər. Texnologiyanın hər bir sahə üçün yaratdığı bir çox imkanlarla yanaşı, məlumat həcminin və kanallarının artması həm düzgün məlumatlandırma sistemlərinin formalaşdırılması, həm də istehlakçıların etibarlı məlumatı müəyyən etməsi ilə bağlı yeni yanaşma, alət və mexanizmləri gündəmə gətirir.

Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunacaq. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparacaqlar.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat veriləcək.

Qeyd edək ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatılacağı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayacaq.

Xatırladaq ki, I Şuşa Qlobal Media Forumu ötən il iyulun 21-23-də keçirilib. "4-cü Sənaye inqilabı dövründə yeni media" mövzusunda I Media Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib. Dövlətimizin başçısı açılış mərasimində çıxış edib və sualları cavablandırıb.

## Milli mətbuatımızın 149 illiyi təntənə ilə qeyd olundu



Səhifə ⇨ 3

## Mərkəzi Seçki Komissiyasının iclası



Səhifə ⇨ 5

## "Makroniada"nın növbəti seriyası

Səhifə ⇨ 3

## Torpaq islahatının yeni mərhələsi



Səhifə ⇨ 7

## Bayden marafonu tərk edəcək



Səhifə ⇨ 11

## Azərbaycanın "yaşıl artım" hədəfləri



**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu il Bakıda keçirilməsi qərarı Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyini ifadə edir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də vurğulanan fikrin bariz ifadəsidir. Neft-qaz ölkəsi olan Azərbaycan hazırda "yaşıl enerji" növlərinin gerçəkləşdirilməsi və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlayır.**

Respublikamızda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, ölkəmizdə təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.

Son illər ölkəmizdə sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası–230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: "Masdar" şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron–Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən üç yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

*(ardı 8-ci səhifədə)*

## Olimpiya çempionluğu idmançılarımız üçün əlyetəndir



Səhifə ⇨ 11

# Moldova portalı Prezident İlham Əliyevin Avropa səfərindən yazıb

**Moldovanın nüfuzlu "Noi.md" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirakına dair geniş məqalə dərc edib.**

"İlham Əliyevin Avropa Siyasi Birliyinin Zirvə toplantısında görüşləri" sərlövhəli məqalədə dövlətimizin başçısının dünya liderləri ilə apardığı müzakirələr barədə ətraflı məlumat verilib.

Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer, Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden, İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd, Macarıstanın Baş naziri Viktor Orban ilə söhbəti zamanı ikitərəfli və regional məsələlər müzakirə edilib. Görüşlərdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, ölkələr arasında ikitərəfli münasibətlərə toxunulub, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu diqqətə çatdırılıb.

Yazıda Azərbaycan Prezidentinin görüşlərdə səsləndirdiyi fikirlərə geniş yer ayrılıb.


Встречи Ильхама Алиева на Саммите Европейского политического сообщества

Президент Азербайджана Ильхам Алиев по приглашению премьер-министра Соединенного Королевства Великобритании и Северной Ирландии Кира Стармера находится с рабочим визитом в Англии для участия в 4-м Саммите Европейского политического сообщества.

По прибытии в Бленхеймский дворец в

# Saxta məlumatlar dezinformasiya hücumudur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ailə üzvlərinin adından guya vətəndaşların hansısa investisiya proqramına vəsait qoymağa təşviq edilməsi barədə bir sıra saxta sosial şəbəkə hesablarında paylaşılan materialların saxta ("fake") məlumat olduğunu bildiririk.**

Bu barədə Medianın İnkişafı Agentliyinin və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin açıqlamasında bildirilib.

Qeyd olunub ki, Azərbaycanın informasiya agentliklərindən birinin veb-saytının tərtibatını imitasiya edərək hazırlanmış saxta "müsahibə" dezinformasiya mahiyyəti daşıyır və ölkəmizin informasiya mühitini çirkləndirməyə yönəlmiş sistemli dezinformasiya hücumlarının tərkib hissəsidir.

"Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırırıq.

Saxta material, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir", - deyə açıqlamada vurğulanıb.

# COP29 Sədrliyinin mətbuat konfransı




**İyulun 19-da COP29 Azərbaycan Sədrliyinin mətbuat konfransı keçirilib.**

Mətbuat konfransında çıxış edən COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Azərbaycanın COP29-un örnək olması ilə bağlı öhdəlik götürdüyünü diqqətə çatdırıb: "Biz sədrlik olaraq regional fəaliyyətləri həyata keçirmək üçün təşəbbüslər irəli sürmüşük. Bütün tərəfləri bir araya gətirməyə, iqlim böhranlarından əziyyət çəkən milyonlarla insanın səsini eşitməyə çalışırıq. Onlar dərhal addımlar atılmasını tələb edirlər. COP29-da toplandığımız zaman bu icmaları diqqətimizdə saxlamalı, ortaq öhdəliklər və mənəvi borclarımız haqqında düşünməliyik".

COP29 Azərbaycan Sədrliyinin ilk məktubları tərəfdaşlara göndərdiyini vurğulayan M.Babayev deyib: "Həmin məktubda atılacaq addımların sürətləndirilməsinə çağırış etdik. Bütün prinsipləri, öz vizyonumuzu, atılan addımları və əsas dönüş nöqtələrini nəzərə alaraq şəbəkələr və koordinasiyalı addımlar vasitəsilə bu uğurlu mərama çatmalıyıq".

Mətbuat konfransına videoformatda qoşulan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Still iqlim dəyişikliyi nəticəsində fəlakətlərin dünyanın hər yerində özünü göstərdiyini deyib. O bildirib ki, COP29 iqlim dözümlülüyünün artırılması üçün yeganə şansdır. COP29 Azərbaycan Sədrliyi daha iddialı fəaliyyət göstərmək və maliyyə öhdəlikləri götürülməsinə diqqəti cəlb etmək üçün fəal çalışır.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin sözlərinə görə, iqlim maliyyə fəaliyyət fondunun yaradılması əsas təşəbbüslərdən biridir.

"Əsas çağırışların aradan qaldırılması üçün maliyyə çatışmazlığını görərək biz buna yeni bir yanaşma ilə maliyyə mexanizminin yaradılmasını təklif edirik. İqlim maliyyə fəaliyyət fondunun yaradılması üçün ənənəvi enerji istehsalçılarının bu fonda töhfələrini verməsi və qrant əsaslı maliyyələr ayrılmasını təklif edirik. Bu fonda əsas töhfə verənlər özəlliklə neft-qaz və kömürdən istifadə edən ölkələrdir. Həmin Fond vasitəsilə 1 milyard dollar vəsait toplamağa çalışırıq.

COP29-un baş icraçı direktoru energetika nazirinin müavini Elnur Soltanovun sözlərinə görə, qlobal istiləşmə ilə bağlı 1,5 dərəcəni saxlamaq hədəflərdəndir: "BP-nin enerji ilə bağlı son proqnozunda da qeyd edilib ki, hətta 2050-ci il üçün nəzərdə tutulan xalis sıfır ssenarisində qlobal elektrik istehsalının 1 faizi kömürdən əldə edilə bilər. Bu kontekstdə 1,5 dərəcə hədəfinə uyğunlaşmaq, həm də karbohidrogenlərin müəyyən rol oynaması mümkündür".

***

## COP29 Akademiyası açıldı

Ekoloji maarifləndirmə və iqlim dəyişmələri ilə mübarizədə gənclərin fəal iştirakının təmin edilməsi, bu sahədə aktiv təcrübənin qazanılması, həmçinin ölkədə irimiqyaslı və qlobal əhəmiyyətli tədbirlərin təşkili sahəsində peşəkar gənclərin yetişdirilməsi məqsədilə təsis olunan COP29 Akademiyasının açılış mərasimi keçirilib.

Mərasimdə test və müsabiqələr nəticəsində 360 namizəd arasından COP29 Akademiyasına qəbul olunan 29 gəncin adı açıqlanıb.

Tədbirdə COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev, COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova iştirak ediblər.

Qeyd edək ki, COP29 Akademiyasının xüsusi fərqlənən iştirakçıları Əməliyyat Şirkətində müxtəlif funksiyalar üzrə işlə təmin edilərək COP29 tədbirinin təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb olunacaqlar.

**XQ**

# Ersin Tatar İlham Əliyevə minnətdarlıq ifadə edib



**Lefkoşa Şimali Kipr Türk Cümhuriyyəti ilə Azərbaycan arasında münasibətlərin inkişafından çox məmnundur.**

Bu barədə ŞKTC-nin Prezidenti Ersin Tatar Lefkoşaya Türkiyə Silahlı Qüvvələrinin Kiprdə sülhməramlı əməliyyata başlamasının 50-ci ildönümünə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmək üçün gələn Azərbaycan nümayəndə heyəti ilə görüşdə bildirib.

"ŞKTC-nin Şuşadakı Zirvə görüşündə müstəqil dövlət qismində iştirakı, Qarabağda digər türk dövlətlərinin bayraqları ilə yanaşı dalğalanan bayrağımız bütün dünya ictimaiyyətinə verilən açıq-aydın mesaj oldu", -deyə Tatar vurğulayıb.

Siyasətçi rəsmi Bakının Lefkoşa ilə əlaqələrin dəstəklənməsinə dair mövqeyini yüksək qiymətləndirib. "Türkiyə və Azərbaycanın dəstəyi mövqelərimizi gücləndirir. Kipr türklərinə yaxın münasibətinə görə Prezident İlham Əliyevə səmimi-qəlbdən minnətdaram", -deyə ŞKTC-nin Prezidenti bildirib.

Xatırladaq ki, görüşdə Azərbaycan–Türkiyə parlamentlərarası qrupun rəhbəri Əhliman Əmiraslanov, millət vəkilləri Musa Quliyev, Fatma Yıldırım, Hikmət Babaoğlu və Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev iştirak ediblər.

# Makronun Azərbaycana qarşı qərəzi regionda gərginlik yaradır

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən Avropa Siyasi İcmasının Zirvə toplantısında Fransa Prezidenti Emmanuel Makronun mətbuat konfransı zamanı Azərbaycanla bağlı söylədiyi fikirləri şərh edib. Bu barədə XİN məlumat yayıb.**

"Təəssüf ki, Fransa Prezidenti Emmanuel Makronun Avropa Siyasi İcmasının Zirvə toplantısında Ermənistanın hərbiləşdirmə siyasətinə haqq qazandıran və Azərbaycana qarşı açıq qərəzli mövqe nümayiş etdirən fikirləri Fransanın regionda gərginlik yaratmaq və sülh prosesinə mane olmaq cəhdlərinin daha bir bariz nümunəsidir. Fransa tərəfinə xatırladırıq ki, Azərbaycanın suveren ərazilərində Ermənistanın 30 il davam edən işğalına son qoymaq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün apardığımız müharibə ölkəmizin beynəlxalq hüquq çərçivəsində legitim hüququ idi. Azərbaycanın istənilən səyi, o cümlədən hərbi potensialının gücləndirilməsi ədalətli məqsədə yönəlib və yönəlməkdədir. Lakin bunu işğalçı dövlət olan Ermənistana münasibətdə söyləmək olmaz. 30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş Ermənistanı Fransa tərəfindən sülhsevər ölkə kimi təqdim etməsi bu ölkənin həm vasitəçilik dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra apardığı siyasətin nə qədər ədalətsiz olduğunu nümayiş etdirir. Onu da xatırlatmaq istərdik ki, münaqişənin sülh yolu ilə həllinə töhfə verməyən, Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoymağın qarşısını alan məhz Fransa kimi dövlətlərin Ermənistanın 30 ilə yaxın müddətdə təcavüzünü ört-basdır edən siyasəti olub. Qeyd olunanları nəzərə alaraq bir daha bildiririk ki, Fransanın sülhə xidmət etməyən və regionda sabitliyi pozan səyləri heç bir nəticə verməyəcək", - deyə qeyd olunub.

**XQ**

# Dördüncü "Yüksəliş"in final mərhələsi




**İyulun 19-da Bakı Ekspo Mərkəzində dördüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin rəsmi açılış mərasimi keçirilib.**

Tədbirdə gənclər və idman nazirinin müavini, İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev "Yüksəliş" müsabiqəsinin məqsədindən danışıb, müsabiqənin yarandığı gündən bu günə qədər hesabat təqdimatı ilə çıxış edib. O bildirib ki, builki müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Müsabiqəyə qatılan namizədlərin əksəriyyəti yeni nəsil idarəçiləridir ki, bu da ölkənin insan kapitalının inkişafı üçün mühüm göstəricidir.

Daha sonra "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin üzvləri - iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, gənclər və idman naziri Fərid Qayıbov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva çıxış ediblər.

Mentorlar dördüncü dəfə keçirilən "Yüksəliş" müsabiqəsinin əhəmiyyətindən və potensiallı kadrlar üçün yaratdığı imkanlardan danışıblar. Bu müsabiqənin gənclərin inkişafında və onların liderlik bacarıqlarının artırılmasında mühüm rol oynadığını vurğulayıblar.

Qeyd edək ki, 118 nəfərin mübarizə aparacağı final mərhələsi 3 gün davam edəcək və iyulun 21-də yekunlaşacaq. Ötən illərdən fərqli olaraq bu il finalda iştirakçılar ekspertlər tərəfindən "İdarəçi rollar modeli" üzrə qiymətləndiriləcəklər.

**XQ**

# Emin Əmrullayev Xaçmazda qəbul keçirib



**İyulun 19-da elm və təhsil naziri Emin Əmrullayev Xaçmaz şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayon sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşlar müəllimlərin yerdəyişməsi, məktəb tikintisi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Millli mətbuatımızın 149 illiyi təntənə ilə qeyd olundu



**Milli mətbuatımızın 149 illiyi və 22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə media nümayəndələri iyulun 19-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**





Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin naşiri və redaktoru, Azərbaycan milli məfkurəsinin əsaslarını yaradanlardan biri olan Həsən bəy Zərdabinin məzarı önünə əklil və tər güllər qoyulub, böyük mütəfəkkirin xatirəsi ehtiramla yad edilib.

***

Həmin gün Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Millli Mətbuatımızın 149 illiyinə həsr olunan tədbir keçirilib. Açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri Dağbəyi İsmayılov bildirib ki, müxtəlif dövrlərdə yoluna və ənənələrinə sadiq qalan Azərbaycan mətbuatı ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı, həssaslığı, jurnalistlərlə əsl dost münasibəti ilə inamla addımladı.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışında bildirib ki, Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuatımız bütövlükdə Azərbaycanın taleyinə təsir göstərmiş hadisədir. Rəşad Məcid Prezident İlham Əliyevin Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş mətbuata diqqət və qayğı siyasətinə sistematik məzmun qazandırdığını vurğulayıb.

Azərbaycan Respublikası Audiovizual Şurasının üzvü Bəxtiyar Qaraca da jurnalistikanın daşıdığı missiyanın cəmiyyət həyatında müstəsna əhəmiyyət kəsb etdiyini deyib. O, jurnalist peşəkarlığı amilini ön plana çəkərək diqqətə çatdırıb ki, hazırkı informasiya daşıyıcıları bolluğunda bu, başlıca meyardır.

Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, Mətbuat Şurasının sədr müavini Vüqar Zifəroğlu çıxışında vurğulayıb ki, Prezident İlham Əliyev Heydər Əliyev şəxsiyyətinin yoluna sadiqliyini nümayiş etdirərək mətbuatın müasir dövrün tələbləri əsasında fəaliyyətinin təşkilini, jurnalist əməyinin stimullaşdırılmasını prioritet seçdi.

MEDİA Agentliyinin şöbə müdiri Səbinə Seyidova bildirib ki, Azərbaycan dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan COP29-a ev sahibliyini reallaşdıracaq. Ölkəmizin bu nüfuzlu konfransa sədrlik etdiyi dövrdə, "Yaşıl dünya naminə həmrəylik ili" ərzində həyata keçirilən çoxsaylı tədbirlərin əsas şüarına çevrildi. Medianın İnkişafı Agentliyi də iqlim dəyişmələrinə qarşı mübarizədə həmrəylik ideyasını əsas götürərək bu ilin may ayında "Yaşıl dünya naminə media həmrəyliyi" müsabiqəsini elan etdi. Şöbə müdiri müsabiqə barədə məlumat verərək qaliblərin adlarını açıqlayıb.

MEDİA-nın şöbə müdiri Mehriban Məmmədova isə agentliyin "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə birgə həyata keçirdiyi "Medialab" layihəsi çərçivəsində elan edilən "Kreativ Media – Bakı" məzmun müsabiqəsindən söz açıb. "AzərGold" QSC-nin İctimaiyyətlə əlaqələr və marketinq departamentinin müdiri Leyla Sadıxova isə diqqətə çatdırıb ki, müasir medianın çağırışlarına uyğun, gənc, enerjili, istedadlı və ən əsası bacarıqlı jurnalistlərin yetişdirilməsinə töhfə vermək əhəmiyyətlidir və MEDİA mövcud istiqamətdə mühüm işlər gerçəkləşdirir. "Medialab" layihəsi çərçivəsində elan edilən "Kreativ Media - Bakı" məzmunlu müsabiqəsi də bunlardan biridir. O, müsabiqənin "Dağ-mədən sənayesində yaşıl həllər: iqlim, texnologiya və innovasiyalar" mövzusunun spesifikliyini, müasir dövrün çağırışları ilə səsləşdiyini, müsabiqə iştirakçılarının mövzulara orijinal və yaradıcı yanaşdıqlarını diqqətə çatdırıb.

Mərasimdə müsabiqə çərçivəsində nəticələr açıqlanıb və qalib seçilən 20-yə yaxın gənc mükafatlandırılıb.

Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə millli mətbuatımızın 149 illiyinə həsr olunmuş toplantı bədii hissə ilə davam etdirilib.

***XQ***

---

# "Makroniada"nın növbəti seriyası

## Ermənistanın bölgədəki maraqları Parisin vecinə də deyil

**Müsyö Makron yenə "gül" ağzını açaraq Şərqə hədyanlar yağdırıb. İşğalçı ölkəni "sülhsevər", müharibə cinayətkarlarını "hərbi əsirlər" adlandırmaqdan utanmayan, separatçılara qucaq açan Fransa prezidenti "kiçik bacısı"nın təəssübünü çəkməkdən usanmır. Onun Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində düzənlənən mətbuat konfransında Azərbaycanın ünvanına söylədiklərini növbəti sərsəmləmə kimi diqqətdən kənarda qoymaq olardı. Amma və lakin...**



Yelisey sarayının müvəqqəti kirayənişini ərz edir ki, 2020-ci ildə Azərbaycan Ermənistana qarşı "dəhşətli" müharibəyə başlayıb. Küçədə üzünə tüpürülən, başına yumurta çaxılan, Afrikadan qovulan, parlament seçkilərini uduzan bir dövlət başçısının ağlının çaşmasına təəccüblənməyə dəymәz. Əgər belə olmasaydı, o, "dəhşətli müharibənin" baş verdiyi məkanı səhv salmaz, onun Ermənistanda deyil, Azərbaycan ərazisində getdiyinin fərqinə varardı. Üstəlik, pozulmuş yaddaşına onu da salardı ki, Azərbaycan suveren torpağının bir parçasında separatizmə son qoyub. Həm də beynəlxalq hüququn norma və qaydalarına riayət etməklə.

Amma Fransa XXI əsrdə "separatçılarla mübarizə" bəhanəsi ilə müstəmləkədə saxladığı kiçik dövlətlərə, xalqlara qarşı, az qala, inkvizisiya cəzası tətbiq edir. Bu biabırçılığa qol qoyan ölkə Azərbaycanı separatçılara qarşı mübarizə aparmaqda qınayır. Əslində, Makron Azərbaycanın təbii hüququnu tanımırsa, bu, artıq onun şəxsi problemi, daha doğrusu, kəmsavadlığıdır. O, jurnalistlərə açıqlamasının sonunda, "qələtini malalamaq" üçün bundan sonra da Ermənistanla Azərbaycan arasında sülhə dəstək verəcəyini bəyan edib. İkiüzlülüyün yüksək markası! Bu gün nə Azərbaycanın, nə də Ermənistanın kənar dəstəyə ehtiyacı var. Parisin sülh prosesinə ən böyük dəstəyi çəkilib kənarda durması, tərəflərə mane olmamasıdır. Əgər Paris daşnak-revanşist təxribatçıları qızışdırmasa bu iki ölkə sülhə daha tez gələr.

* * *

Rəsmi Bakı Fransa prezidentinin siyasi məntiqdən və sağlam diplomatiyadan uzaq bəyanatına cavabını çox gözlətmədi. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Emmanuel Makronun mətbuat konfransında Azərbaycanla bağlı söylədiyi fikirləri alt-üst edib. Fransa prezidentinin Avropa Siyasi İcmasının Zirvə toplantısında Ermənistanın hərbiləşdirmə siyasətinə haqq qazandıran və Azərbaycana qarşı açıq qərəzli mövqe nümayiş etdirən fikirlərinin Parisin regionda gərginlik yaratmaq və sülh prosesinə mane olmaq cəhdlərinin daha bir bariz nümunəsi olduğu vurğulanan açıqlamada bəzi mətləblər xatırladılıb. Nəzərinə çatdırılıb ki, Azərbaycan suveren ərazilərində Ermənistanın 30 il davam edən işğalına son qoymaq, özünün suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün apardığı müharibə ölkəmizin beynəlxalq hüquq çərçivəsində legitim hüququ idi. "Azərbaycanın istənilən səyi, o cümlədən hərbi potensialının gücləndirilməsi ədalətli məqsədə yönəlib və yönəlməkdədir. Amma, bunu işğalçı dövlət olan Ermənistana münasibətdə söyləmək olmaz",– deyilən şərhdə XİN rəsmisi qeyd edir ki, bir milyona yaxın azərbaycanlını doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş Ermənistanın Fransa tərəfindən sülhsevər ölkə kimi təqdim edilməsi onun həm vasitəçilik dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra apardığı siyasətin nə qədər ədalətsiz olduğunun nümayişidir.

Azərbaycan XİN-in açıqlamasında Makrona o da xatırladılır ki, münaqişənin sülh yolu ilə həllinə töhfə verməyən, Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoymağın qarşısını alan məhz Fransa kimi dövlətlərin Ermənistanın 30 ilə yaxın müddətdə təcavüzünü ört-basdır edən siyasəti olub.

* * *

ATƏT-in Minsk qrupunun həmsədri statusunda münaqişəni dinc yolla nizamlamaq əvəzinə, onu dondurmaq üçün min oyundan çıxan rəsmi Parisin sülhə xidmət etməyən, regionda sabitliyi pozan səylərinin faydası olmayacaq. Necə ki, Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevin sülh sazişinin imzalanması üçün irəli sürdüyü əsas şərti yerinə yetirməyi uzatdığına görə görüşdən yayınıb. Bakının mövqeyi hamıya bəllidir: sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında Azərbaycana ərazi iddialarını əks etdirən bəndlər çıxarılmalıdır! Bunu beynəlxalq hüquq da diktə edir. Əgər Paşinyan sülh və əməkdaşlıq istəyirsə, bu addımı atmalıdır. Əks-təqdirdə bölgəyə nə arzulanan sülh gələcək, nə də gözlənilən əməkdaşlığa start veriləcək. Bu halda Ermənistan yenə də regional layihələrdə iştirakdan məhrum, deməli, həm də çoxmilyardlıq gəlirdən məhrum qalacaq. Belə məlum olur ki, Paris məhz bu pessimist perspektivdə maraqlıdır. "Kiçik bacısının" gələcək taleyi onu qətiyyən düşündürmür.

Bunu yazmışdıq, indi bir daha təkrar edirik: Fransanın Ermənistana göndərdiyi hücum silahları sülhə yox, müharibəyə xidmət edir. Elə iki gün əvvəl Paşinyanı İlham Əliyevlə görüşdən yayındıranın da Emmanuel Makron olduğunu söyləyənlər var. Paşinyanın beynini dolduran, onu ölkəsinin maraqlarına xidmət edəcək addımlardan çəkindirən məhz Makron Fransasıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik**

– Fransa prezidenti Emmanuel Makron Cənubi Qafqaz siyasətini korrektə etmək istəmir. Onun son təxribatçı çıxışı buna dəlalət edir. Makronun sözlərinə görə, guya, Fransa Ermənistana ona görə hərbi texnika göndərir ki, bu ölkə özünü Azərbaycandan qoruya bilsin. 30 ilə yaxın torpaqlarımız işğal altında olanda Ermənistanın qorunması Fransanın yadına düşmürdü, torpaqlarımızın 20 faizinin işğalını "reallıq" kimi qəbul edirdilər. Elə ki, Azərbaycan torpaqlarını azad etdi, ərazi bütövlüyünə nail oldu, Fransa əl-ayağa düşdü, vay-şivən qoparmağa başladı ki, Ermənistanı qorumaq lazımdır. Ermənistanı Azərbaycanla sülhə təşviq etmək əvəzinə, konstitusiyada başqalarının ərazisinə iddianın beynəlxalq hüquqa zidd olduğunu anlatmaq əvəzinə Paris İrəvana sanki ürək-dirək verir: "Möhkəm ol, Azərbaycan və Türkiyə ilə razılaşma, silah-sursatı biz göndərəcəyik".

Makron deyib ki, baş nazir Nikol Paşinyanın Azərbaycana hücum etmək planı yoxdur. Həqiqətən Paşinyan o durumda deyil ki, bu barədə düşünsün. O, İkinci Qarabağ müharibəsində elə zərbə almayıb ki, yeni müharibəyə hazır olsun. Söhbət Paşinyandan yox, baş nazirin etiraf etdiyi, ordusundakı "5-ci kolondan", Yerkpara kimi terrorçu təşkilatların varlığından gedir. Onlar Azərbaycana qarşı təxribatları ilə yada qalıblar.

Düşünürük ki, Nikol Paşinyanın Londonda Avropa Siyasi Birliyinin 4-cü zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən imtinasının arxasında elə Makron dayanır. Rəsmi London iki lideri görüşdürmək üçün çox çalışdı. Çünki Nikol Paşinyan və İlham Əliyev fevralda Berlində Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə görüşüblər. Bundan sonra Vaşinqtonda NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan dövlət katibi Antoni Blinkenin iştirakı ilə üçtərəfli görüş keçiriblər. London da Avropa toplantısı çərçivəsində fürsətdən istifadə edib Azərbaycan və Ermənistan liderlərinin görüşünü təşkil etmək istəyirdi. Bu, Böyük Britaniyaya Cənubi Qafqazda maraqlı olduğunu, o cümlədən Bakı ilə İrəvan arasında Berlin və Vaşinqton qədər moderatorluğunu göstərmək üçün idi.

**Ekspert rəyi**



**Yeganə HACIYEVA,**
**Mətbuat Şurası İdarə Heyətinin üzvü, beynəlxalq münasibətlər üzrə ekspert**

– Əvvəlcə onu deməliyəm ki, Azərbaycan mediasının beynəlxalq arenada müdafiə mövqeyindən hücum taktikasına keçməsi təqdir olunası haldır. Fransa rəhbərliyinin Cənubi Qafqazda baş verən proseslərə yanaşmasına gəldikdə isə deməliyik ki, rəsmi Paris özünün əvvəlki yanlış mövqeyindən hələ də əl çəkməyib. Emmanuel Makron Ermənistanı silahlandırmaqla, eyni zamanda, bölgədə sabitliyi pozmağa yönəlik fəaliyyəti dəstəkləməklə məşğuldur. Ümumiyyətlə, otuz ilə yaxın müddətdə qonşusunun torpaqlarını işğalda saxlayan bir ölkəyə silah göndərməklə rəsmi Paris regionda silahlanma yarışına rəvac verir. Bunun perspektivi digər qonşu dövlət – Gürcüstan üçün də arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Axı, Ermənistanın Gürcüstanın Cavaxetiya vilayətinə qarşı da ərazi iddiaları var. Yəni, güclənmiş Ermənistanın günlərin bir günü həmin bölgəyə hücum etməyəcəyindən Tbilisi də sığortalanmayıb. Bu mənada bölgə dövlətləri Emmanuel Makronun Cənubi Qafqazda təhlükəsizliyə təhdid yaradan məqsədyönlü təxribatçı siyasətindən narahat olmalıdırlar. Yəni, bu, təkcə Azərbaycana deyil, region ölkələrinin hamısına aiddir.

Makronun açıqlamasında nəzərə çarpan digər mənfi məqam regionda əməkdaşlıq üçün risklərin formalaşması təhlükəsidir. O da nəzərə alınmalıdır ki, işğal faktoru hələ də Ermənistan cəmiyyətinin ideoloji zəmini, onları birləşdirən ideyadır. Bu mənada Emmanuel Makronun bölgədə Azərbaycanın yaratdığı reallığı təhrif etməklə, beynəlxalq hüququn əleyhinə fikirlər səsləndirməsi bölgədə həssas sabitliyə zərbə vurmaq məqsədini güdür.

# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək



VI məqalə

*Bizim birliyimiz əbədidir. Biz sarsılmaz birlik yaratdıq, ancaq siyasət elə sahədir ki, hər gün çalışmalısan boşluq olmasın, ara yaranmasın, kimsə bu araya girməsin.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Transregional dəhlizlər

XXI əsr, sözün həqiqi mənasında, "nəqliyyat dəhlizləri" terminini müasir geosiyasətin əsas faktorlardan birinə çevirilmişdir. Qlobal miqyasda müxtəlif xarakterli böhranlar kəskinləşəndə nəqliyyat dəhlizləri aktual və aktiv müzakirə mövzusu olur. Çünki nəqliyyat dəhlizləri, faktiki olaraq, dövlətlərarası əlaqələrin başlıca təminedici "arteriyaları" funksiyasını yerinə yetirir. İndiki dövrdə böhranlar isə başlıca olaraq dövlətlər və ya regionlararası münasibətlərdə meydana gələn (və ya gətirilən) ixtilaflardan yaranır. Həmin ixtilaflar sabitliyi pozur, sabit və təhlükəsiz hərəkətlərə ciddi manеə yaradır. Faktiki olaraq regionlararası geosiyasi məkanın bütövlüyü pozulur.

Belə olan halda ön plana elə mühitin yaradılması məsələsi çıxır ki, onun daxilində kəsintisiz, təhlükəsiz və sabit hərəkəti təmin etmək mümkün olsun. Bu tələb iri sərmayəçilərin də seçim etməsini şərtləndirir. Onlar yalnız sabit, təhlükəsiz və səmərəli fəaliyyətin mümkün olduğu məkanlara yatırım edirlər. Beləliklə, geosiyasi məkanın coğrafi bütövlüyü aspekti ilə siyasi, iqtisadi, maliyyə, kommunikasiya və başqa aspektləri arasında sıx əlaqənin nəzəri obrazının təhlili xeyli aktuallaşır.

Burada elə kommunikativ mühit yaratmaq lazım gəlir ki, hazırlanmış layihələri həyata keçirmək mümkün olsun. Həm də bu zaman milli təhlükəsizlik faktorunun tələbləri ödənsin. Yəni, məsələn, əgər enerji layihəsindən söhbət gedirsə, enerji təhlükəsizliyi ilə milli təhlükəsizlik bir-birini şərtləndirməlidir. Bu şərt ödənmədikdə ən faydalı enerji layihəsi belə tam reallaşa bilmir. Çünki bu layihəni həyata keçirən dövlət öz milli təhlükəsizliyini təmin etməkdə çətinlik çəkir ki, sonucda enerjidən gələn maliyyənin faydası olmur.

Məsələ nəqliyyat faktorunun bir regionun sərhədlərini aşanda daha da qəlizləşir. Çünki transregional mühitdə sabitliyi, təhlükəsizliyi və qarşılıqlı faydalı əməkdaşlığı təmin etmək region üçün nisbətən ikiqat çətindir. Səbəbi regionlar arasında, birincisi, geosiyasi aspektdə fərqli dinamikanın olması, ikincisi, təhlükəsizliyi təmin etmənin fərqli modellərinə ehtiyacın yaranması və nəhayət, etibarlı tərəfdaş müəyyən etməyin riskləri ilə bağlıdır.

Bütün bunlar hər şeydən öncə, "transregional mühit" anlayışının geosiyasi mənasını müəyyən etməyi aktuallaşdırır. Bunun fonunda transregional mühitdə uğurlu ola biləcək yolun – dəhlizin yaradılması zəruri edir. Bu iki faktorun qarşılıqlı təsiri nəzərdə tutulan layihənin geosiyasi-nəzəri aspekti ilə praktiki tərəfinin ahəngdarlığını tələb edir. Bizcə, transregional dəhlizlərin geosiyasi faktora çevrilməsi mexanizmi məhz bu məqamla bağlıdır. Məharətli lider, siyasi, diplomat transregional dəhlizin reallaşmasının uğurlu geosiyasi kontekstini düzgün müəyyən etməlidir! İlham Əliyev bu sahədə ən böyük uğurlar qazanmış lider-siyasətçi və dövlət başçısıdır. Bu tezisin təsdiqi Qarabağ Bəyannaməsinin ruhu və konkret müddəalarında ifadə olunmuşdur.

## Qarabağ Bəyannaməsi və transregionallıq

Transregionallıq faktoru Qarabağ Bəyannaməsinin bir neçə bəndində konkret məsələlər üzrə öz əksini tapmışdır. Biz, öncəki məqalədə Bəyannamənin 4-cü bəndində "transregional dəhliz" ifadəsinin yer aldığını vurğulamışıq. 5-ci bənddə yazılır: "Ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək...".

Deməli, Qarabağ Bəyannaməsi "transregional" anlayışının geosiyasi aspektdə anlamını da verir. Bu anlamda Türk Dövlətləri Təşkilatının (TDT) Avropa (Türkiyə daxil), Cənubi Qafqaz, Mərkəzi Asiya və Çin regionlarını birləşdirən dəhliz yaratması çalarına da vardır. Bu cür transregionallığın konkret dörd regionu əhatə etməsi TDT-nin multiregional miqyasda fəaliyyətini çox vacib hesab etdiyi anlamını verir. Həmin bağlantının yaradılması da Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi vasitəsi ilə həyata keçirilməlidir.

Bu, o deməkdir ki, Qarabağ Bəyannaməsi həm hansı regionları əhatə edən "transregional geosiyasi anlamı" əhatə etdiyini, həm də bu prosesin aparılmasının dəqiq marşrutunu göstərir. Avropadan başlayıb, Qafqazdan keçən və Mərkəzi Asiya ilə Çini əhatə edən transregional məkan Orta dəhliz vasitəsilə bir-birinə bağlanmalıdır. Bu marşrutda əsas olaraq TDT coğrafiyası vardır. Yəni TDT transregional bağlantının qurulmasının başlıca stimulverici və təminedici faktor rolunu oynamalıdır.

TDT-nin bu şərti irəli sürməsi üçün bütün imkanları vardır. Həmin məqam Qarabağ Bəyannaməsində dəqiq ifadə edilmişdir. Orada yazılmışdır ki, transregional bağlantını təmin etmək üçün "Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirməyə və nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırırlar". Məqsəd isə transregional məkanda "ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarətə" nail olmaqdan ibarətdir.

Qarabağ Bəyannaməsində qarşıya qoyulan bu möhtəşəm vəzifənin öhdəsindən gəlmək üçün hər bir TDT üzvünün vəzifəsi də müəyyən edilmişdir. Konkret olaraq, TDT üzvləri "bu məqsədlə nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi və dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılmasını tapşırırlar". Bu məsələdə Bakı-Tbilisi-Qars və Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihələrinin təşviqi ayrıca aktuallıq kəsb edir.

Maraqlı məqamlardan biri ondan ibarətdir ki, transregionallıq kontekstində nəqliyyat-kommunikasiya anlamını TDT geniş aspektdə götürür. Bura yuxarıda vurğulanan nəqliyyat-loqistika növləri ilə yanaşı, Rəqəmsal İpək Yolu və süni intellekt layihələri də daxildir (Qarabağ Bəyannaməsinin 14-16-cı bəndləri).

Aydın olur ki, Qarabağ Bəyannaməsi transregionallıq miqyasında ciddi və əhatəli proqramlar yerinə yetirmək əzmini ifadə etməkdədir. Təbii ki, bu əzmin əsaslı geosiyasi mənası da vardır.

## Qarabağ Bəyannaməsinin geosiyasi mənası

Bəyannamənin transregional kommunikasiya aspektində funksional imkanlarını araşdırarkən maraqlı məqamlara rast gəlinir. Orada TDT yaxın perspektiv üçün perspektivli və əsas təşkilat statusunda verilir. Bu da o deməkdir ki, TDT geniş bir geosiyasi məkanda aparıcı rol oynamağı planlaşdırır. Həmin aspektdə TDT-nin Aİ, Rusiya, Çin və İran kimi böyük güclərlə münasibəti məsələsi daha da aktual görünür. Bəyannamənin ruhundan və məzmunundan görünür ki, TDT həmin güclərin heç biri ilə intriqaya və yarışa girmək fikrində deyil. Əksinə, çox maraqlı və əhəmiyyətlidir ki, məhz TDT onlar arasında müsbət mənada "geosiyasi körpü" rolunu oynamağa hazırdır.

Bu rolu abstrakt (və ya mücərrəd) səviyyədə deyil, enerji, nəqliyyat, loqistika, informasiya, ən müasir texnologiyalar sahəsində konkret layihələr üzrə əməkdaşlıqda həyata keçirmək əzmindədir. Bunun üçün Azərbaycanın indiyə qədər həyata keçirdiyi müxtəlif xarakterli layihələr baza rolunu oynaya bilər. Onların inkişaf etdirilməsi və yeni platformaların hazırlanması TDT-nin transregional geosiyasi əməkdaşlığı üçün ən uyğun format olduğunu təsdiq edəcəkdir.

Bundan başqa, TDT birlik formatının multiregional miqyasda səmərəli qarşılıqlı faydalı əməkdaşlığın gözəl nümunəsi olduğuna əminlik yaranacaqdır. Çünki, birincisi, TDT uzun müddətdir ki, ziddiyyətlərdən əziyyət çəkən bir neçə regionu qarşılıqlı anlaşma müstəvisinə gətirəcəkdir, ikincisi, Orta dəhliz vasitəsilə geniş bir geosiyasi məkanda kommunikasiya infrastrukturunun tam açılmasına ciddi təkan verəcəkdir, üçüncüsü, Zəngəzur dəhlizinin işə salınması böyük tarixi ədalətsizliyi – Türk dünyasının quru yolunun olmamasını aradan qaldıracaqdır, dördüncüsü, bir neçə regionda milli təhlükəsizliyin əsaslı təminatı mexanizminin işlənməsinə möhkəm təməl yaradacaqdır.

Qarabağ Bəyannaməsinin bu səviyyədə geosiyasi anlamı həm də TDT-nin gələcəyi ilə bağlı bir sıra proqnozlar verməyə əsas yaradır.

## TDT-nin gələcəyi

Məsələnin bu tərəfi də bizim üçün çox əhəmiyyətlidir. İndi dünyada regional və transregional miqyaslı əməkdaşlıq formatları az deyildir. Onları müxtəlif fəaliyyət istiqamətləri üzrə təsnif etsək, yüzlərlə nümunə alınar. Özü də bu proses Amerikadan Uzaq Şərqə qədər geniş bir coğrafiyanı əhatə edir. Nəticədə indiki mərhələdə regional əməkdaşlıqdan regionlararası əməkdaşlıq formatına keçid üstünlük təşkil etməyə başlayır. Bu isə o deməkdir ki, həmin növ təşkilatlar üçün regional formatla multiregional formatın sintezi vacibdir. Digər tərəfdən isə rəqabətə davamlı əməkdaşlıq mühitinin formalaşdırılması vacibdir.

Bu iki faktorun qarşılıqlı təsirləri şərti ilə TDT-nin perspektivlərini proqnozlaşdırmaq vacibdir. Qarabağ Bəyannaməsi bu baxımdan nikbin qənaətə gəlmək imkanı verir. Onun təməl prinsiplərinin Şuşa Bəyannaməsindəki prinsiplərlə uyğunluq və məntiqi ardıcıllıq təşkil etməsi, həm də müəyyən uğurlu təcrübənin mövcudluğunu nümayiş etdirir. Belə ki, Şuşa Bəyannaməsi çərçivəsində Azərbaycan və Türkiyə müttəfiqliyi çox ciddi və qalıcı uğurlar gətirmişdir. Bu təcrübənin, bütövlükdə, Türk dünyasına tətbiq edilməsi qarşısında heç bir manеə yoxdur.

Qarşıya qoyulan məqsədin reallaşması mexanizmləri də dəqiq müəyyən edilmişdir. Demək olar ki, TDT artıq hər bir situasiyadan optimal çıxış yolu tapa bilən çevik işlək mexanizmə malikdir.

Bu məqamları ümumiləşdirəndə Qarabağ Bəyannaməsini TDT-nin yaxın perspektiv üçün inkişafın və inteqrasiyanın uğurlu nümunəsi olduğunun təsdiqi kimi də təsəvvür edə bilərik. Şübhə yoxdur ki, bu prosesi də türk dövlətləri uğurla başa çatdıracaqlar.

Bundan sonra növbəti mərhələ başlamalıdır. Həmin mərhələnin "yol xəritəsi"ni isə "Azərbaycan Bəyannaməsi"nin müəyyən edəcəyi istisna deyildir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycanın ardıcıl və prinsipial sülh çağırışları

**Əslində, ölkəmizin xarici siyasətdəki çoxvektorluluq ənənəsi 44 günlük İkinci Qarabağ müharibəsindən əvvəl də mövcud idi. Ancaq son zamanlar, xüsusilə, hələ başa çatmayan iyul ayında bu istiqamətdə atılan addımlarımız, sözün həqiqi mənasında, tarixi əhəmiyyət kəsb edir.**

Yeni faktlar sübut edir ki, beynəlxalq aləmdə Azərbaycana olan inam və etimad həftə, hər həftə, hər gün artır. Cənab Prezidentin London səfəri zamanı bir vətəndaş kimi məni məmnun edən əsas fakt Avropanın bir neçə dövlət və hökumət başçılarının Azərbaycan lideri ilə görüşmək üçün müraciət etməsi oldu.

Oksfordda keçirilən görüşlərin, demək olar ki, hamısı "qarşı tərəfin müraciətinə əsasən" reallaşdırılmışdır. O da sevindirici haldır ki, vaxtilə bütün dünyaya meydan oxuyan, bu gün isə Avropanın ən güclü iqtisadiyyatına sahib olan Almaniyanın Federal Kansleri Olaf Şolts da öz ölkəsinin məsul şəxsləri vasitəsilə Azərbaycan Prezidenti ilə görüşmək istəyini bildirmiş və həmin görüş keçirilmişdir.

Xarici siyasətimizdəki çoxvektorluluq tendensiyasını qabardarkən nə üçün məhz iyul ayındakı faktları yada salırıq? Çünki dövlət başçımızın bu ayda iştirak etdiyi beynəlxalq tədbirlər bizim qarşımızdakı hədəflərə çatmağımız üçün böyük uğurlara zəmin yaradır. Prezident İlham Əliyevin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada təşkil olunan Zirvə toplantısı çərçivəsində keçirdiyi Avrasiya miqyaslı görüşlər və söylədiyi fikirlər, iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsinin imzalanması, iyulun 11-də Pakistan İslam Respublikasına dövlət səfəri zamanı apardığı danışıqlar və imzalanan sənədlər, eləcə də iyulun 18-də London səfəri zamanı şahidi olduğumuz tarixi faktlar sübut edir ki, bizim üçün artıq heç bir ölkə ilə problem qalmayıb. Fransa və Ermənistan isə özləri özlərinin probleminə çevriliblər.

Mən indi öz fikirlərimi iki mühüm tədbirin materiallarından seçdiyim iqtibaslarla davam etdirmək istəyirəm.

Birinci iqtibas:

**Çin tərəfi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlayır, ŞƏT-də Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləyir. Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır.**

***Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"dən.***

**3 iyul 2024-cü il**

Xatırladaq ki, Azərbaycan ilə Çin arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələri son illər ərzində yüksələn xətlə inkişaf etməkdədir. Azərbaycan və Çin liderləri arasındakı səmimi dostluq və əməkdaşlıq əlaqələri dövlətlərarası münasibətlərimizin inkişafına böyük təkan verib və bu görüş bir daha göstərdi ki, Azərbaycan – Çin siyasi əlaqələri tarixinin ən yüksək səviyyəsindədir. Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, Çin hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, Azərbaycan isə "Vahid Çin" siyasətini dəstəkləyib. Elə ona görə də, görüş zamanı, Azərbaycan və Çin dövlət başçıları qarşılıqlı hörmət, bərabərhüquqluluq, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq prinsiplərinə əsaslanaraq, dövlətlərimiz arasındakı əlaqələrin keyfiyyətcə yeni, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə dair qərar verib və Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə ilə çıxış ediblər.



İkinci iqtibas:

**"Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ÜmumAvropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq".**

***Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda "dəyirmi masa"dakı çıxışından.***

Mən Asiyanın iqtisadi, elmi-texniki və hərbi nəhəngi olan Çin Xalq Respublikası ilə mövcud əməkdaşlığımızın səviyyəsindən və Londonda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində bizə göstərilən etimaddan məmnunluq ifadə edirəm. Ancaq otuz ilə qədər Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayaraq viranəyə çevirmiş işğalçı Ermənistan hərbçiləri Prezident İlham Əliyevin Pakistan səfərindən vahimələniblər. Erməni hərbçi Nikol Paşinyan iqtidarına xitabən deyir: "Siz nə bilirsiniz ki, Azərbaycan Prezidentinin təyyarəsini müşayiət edən Pakistan qırıcılarını sabah, ya da o biri gün Azərbaycan Ordusunun arsenalında görməyəcəksiniz?"

Yeri gəlmişkən, dövlət başçımızın Astana səfəri, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində göstərdiyimiz səylər, Mərkəzi Asiya ölkələri ilə münasibətlər ( son zamanlar həmin ölkələrlə birlikdə təşkil edilən hərbi təlimdə Azərbaycan əsgərləri özünəməxsus uğurlara imza atıblar), Astanada Rusiya Prezidenti Vladimir Putinlə görüş, Pakistan səfəri və başqa məqamlar çoxdan davam etdirdiyimiz siyasətin yeni zamanın tələblərinə uyğun olaraq modernləşdirilməsidir. Ancaq bizim üçün yeni olan bir məqam da var. Bu yenilik iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin dördüncü maddəsinin beşinci bəndində öz əksini tapıb.

Xatırladaq ki, Pekin hələ xeyli müddət əvvəl də BRICS-in genişləndirilməsi çağırışı ilə çıxış edirdi. Bu təşkilat sürətlə inkişaf edən beş ölkədən (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) ibarət qrupdur. 2011-ci ilə qədər təşkilatla bağlı BRIC abreviaturası istifadə olunurdu. BRIC-ə CAR-ın birləşməsi ilə əlaqədar olaraq 18 fevral 2011-ci ildə, hind maliyyə nazirinin ərizəsi üzrə bundan sonra qrup BRICS adını daşımağa başlamışdır.

Bəs Pekin nə üçün bu qrupun genişləndirilməsini istəyir və Azərbaycan nə üçün bu qrupla əməkdaşlığa meyllidir? Ekspertlərin fikrincə, yeni üzvlərin qoşulması ilə BRICS öz iqtisadi potensialını və dünya iqtisadiyyatındakı payını artıraraq ümumdünya iqtisadiyyatına təsir vasitəsinə və yeni dünya nizamının mühüm tərkib hissəsinə çevriləcək. "Bloomberg"in hesablamalarına görə, 2040-cı ilə qədər qlobal ÜDM-in 45 faizə qədəri BRICS ölkələrinin payına düşəcək. Bu isə G7 ölkələrinin sahib olacaqlarından iki dəfə çoxdur. Azərbaycana bu sahədə də uğurlar olsun! Ölkəmizin Qoşulmama Hərəkatındakı möhtəşəm fəaliyyəti sübut edir ki, biz bu il noyabrda Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransını (COP29) da mükəmməl hazırlaşacaq və möhtəşəm tədbirə xalqımızın adına layiq evsahibliyi edəcəyik.

Nəhayət, qətiyyətlə deyə bilərik ki, İkinci Qarabağ müharibəsindəki Zəfərimizin yaratdığı yeni reallıqlar Azərbaycanın xarici siyasətinin qarşısında yeni üfüqlər açır. Üfüqümüz həmişə işıqlı, yolumuz aydın, ordumuz qüdrətli olsun! AMİN!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***



# Milli Məclisə seçkilərə 42 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



*Məzahir Pənahov:*

## Azad edilmiş ərazilərdə 34 məntəqə seçkilərə hazırdır

**Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə 806 nəfər namizədlik üçün müraciət edib. Bu barədə MSK sədri Məzahir Pənahov məlumat verib. O qeyd edib ki, 25 partiyanın 585 səlahiyyətli nümayəndəsi artıq qeydiyyatdan keçib. 532 nəfərin isə namizədliyinin irəli sürülməsi təsdiqlənib. 451 nəfər imza vərəqləri alıb. 31 nəfər isə imza vərəqlərini qaytarıb. Artıq dörd nəfərin namizədliyi qeydə alınıb.**



MSK sədri daha sonra deyib ki, azad edilmiş ərazilərdəki 34 daimi seçki məntəqəsi seçkilərə tam hazırdır. Bundan başqa, müvəqqəti – beş günlük məntəqələr də yaradılır. Orada səs verəcək vətəndaşlar üçün proses yüksək səviyyədə olacaq.

## MSK 6 milyon 516 min 567 bildiriş çap edəcək

**Sentyabrın 1-nə təyin edilmiş növbədənkənar parlament seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanması qaydası təsdiq edilib.**



Bu barədə MSK sədrinin müavini Rövzət Qasımov məlumat verib. O deyib ki, seçicilərin məlumatlandırılması vacib məsələdir. Buna görə MSK 6 milyon 300 mindən çox seçicinin hər birinə müvafiq bildirişlərin çatdırılması üçün vacib addımlar atacaq. Hər hansı seçici bu bildirişi almasa, qaynar xəttə müraciət edə bilər. Bildirişlər mətbəə üsulu ilə müxtəlif rənglərdə hazırlanır və üzərində səsvermə haqqında bütün vacib məlumatlar müfəssəl şəkildə izah edilir”.

R.Qasımovun sözlərinə görə, ötən prezident seçkilərində işğaldan azad edilən ərazilərdəki seçicilər üçün fərqli bildirişlər hazırlanmışdı. Bu dəfə də həmin ərazidə səs verəcək seçicilər üçün fərqli forma və rəngdə bildirişlər hazırlanacaq. Ümumilikdə, MSK tərəfindən 6 milyon 516 min 567 bildiriş çap ediləcək.

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin forması, sayı və hazırlanması qaydası haqqında

### *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı*

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 104.1-ci maddəsinə əsasən məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2013-cü il 5 iyun tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları”nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli, müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Göstərilənlərlə əlaqədar olaraq seçicinin soyadı, adı, atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildirişin forması respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınaraq, həmin saydan təqribən 3% artıq olmaqla mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə əsasən **qərara alır:**

**1.** 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin forması təsdiq edilsin.

**2.** Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 6 516 567 (altı milyon beş yüz on altı min beş yüz altmış yeddi) ədəd müəyyən edilərək mətbəə üsulu ilə hazırlansın.

**3.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir PƏNAHOV**
**Katib Arifə MUXTAROVA**
**Katib Mikayıl RƏHİMOV**

## Mərkəzi Seçki Komissiyasının iclası

**İyulun 19-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin media və kommunikasiya şöbəsindən bildiriblər ki, əvvəlcə komissiyanın iyulun 15-də keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələ müzakirə olunub.

Diqqətə çatdırılıb ki, bildirişdə seçicinin soyadı, adı və atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı əks olunur, habelə seçicilərin məlumatlandırılması məqsədilə səsvermə qaydalarının illüstrasiyalı şəkillərlə aydın izahı verilir. Bildirişlə bağlı Komissiya üzvlərinin müzakirəsinin ardınca qanunvericiliyin tələblərinə uyğun olaraq səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 6 milyon 516 min 567 bildirişin mətbəə üsulu ilə hazırlanması qərara alınıb.

İclasda daha sonra qarşıdan gələn seçkilərdə Gələcək Azərbaycan Partiyası, Müsavat Partiyası, Azad Vətən Partiyası, Vəhdət Partiyası və Ədalət Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. MSK sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verib.

Media subyektləri nümayəndələrinin də iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

***XQ***

# Səsvermədə iştirak etmək vətəndaşlıq borcumuzdur



**“Növbədənkənar parlament seçkilərinə maraq çox böyükdür. Bunu deputat mandatı uğrunda mübarizənin getdikcə gərginləşdiyi də təsdiqləyir. Namizədliyini irəli sürmək istəyənlərdən başqa seçki dairəsinə və məntəqələrə müraciət edənlərin sayı gündən-günə artır. Hətta yaşlı insanlar da müraciət edərək səsvermədə şəxsən iştirak edəcəklərini, istədikləri namizədə səs verəcəklərini bildirirlər. Təbii ki, onlara heç bir problem yaradıla bilməz. Əksinə, biz seçicilərin daha çox olması marağındayıq. Elə seçki məntəqələrimiz var ki, həmin ərazidə yaşı 90-dan çox olan xeyli seçicimiz yaşayır. Onlara hörmət əlaməti olaraq evlərinə daşınan qutu göndərmək və səs vermələri üçün əlverişli şərait yaratmaq istəyirik. Ancaq onlar deyirlər ki, özlərini çox gümrah hiss edir və seçki məntəqəsinə gəlib orada səs verəcəklər. Hətta ötən seçkilərdə seçki məntəqəsindən uzaqda yaşayanların gəlib-getmələri üçün maşın da təşkil edilmişdi. Təki səsverməyə gələn seçicilərimizin sayı çox olsun və seçkilər mütəşəkkil keçsin”.**

Bu fikirləri redaksiyamıza növbədənkənar parlament seçkilərinə hazırlıq işləri barədə məlumat verən 67 saylı Sabirabad seçki dairəsinin sədri Məstalı Nuriyev bildirdi.

Sədr dedi ki, hazırda seçki prosesinin ən qızğın mərhələsindəyik. Seçkilərdə namizəd olmaq istəyənlər çoxdur. Onların namizədliyinin təsdiq edilməsi, topladıqları imzaların etibarlı olub- olmamasını müəyyənləşdirmək, sonra təbliğat-təşviqatın aparılmasını təşkil etmək mürəkkəb prosesdir.: “Söz yox ki, biz bütün işlərimizi qanunvericiliyin tələbləri əsasında qurmuşuq. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, müəyyən səbəblər üzündən namizədliyi qeydə alınmayanlar seçki dairəsini və ya ekspertləri günahlandırırlar. Onlara namizədliyinin təsdiq olunmamasının səbəbləri izah olunsa da, yuxarı inistansiyalara şikayət edirlər. Bu, gərginliyi daha da artırır. Mən 20 ilə yaxındır ki, seçklərlə məşğulam. Bu sahədə kifayət qədər təcrübəm var. Həmişə də şahidi olmuşam ki, namizədliyi qeydə alınmayanların şikayəti əsassız çıxıb”.

M.Nuriyev məntəqə seçki komissiyalarında aparılan hazırlıq işlərindən də danışdı. Dedi ki, DSK-nın dislokasiyasında 49 seçki məntəqəsi var. Komissiya üzvləri də seçki prosesdində təçrübəsi olanlardır. Lakin buna baxmayaraq, onların maarifəndirilməsi zəruridir. MSK tərəfindən təşkil olunan maarifləndirmə proqramlarında mütləq iştirak edirik. Bu vaxta qədər MSK dairə seçki komissiyaları, işçi qrupunun üzvləri və ekspertlər üçün seminar -müşavirələr keçirib. Bütün bunlar seçki prosesində qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Aşağı seçki komissiyalarının üzvləri üçün təşkil olunan maarifləndirmə tədbirlərində seçki prosesində baş verənlər-seçki qutularının açılmasından bağlanana qədər baş verənlər- bülletenlərin sayılması və yekun protokolun doldurulması bir daha əyani şəkildə nümayiş etdirlir. Bu, həm də komissiya üzvlərinin bilik və bacarıqlarının, işgüzar vərdişlərinin, həmçinin peşəkarlıq səviyyəsinin artırılmasında çox vacibdir. Hazırlıq işlərinin yüksək səviyyədə olması növbədənkənar seçkilərin azad, ədalətli və demokratik şəraitdə başa çatacağına əminlik yaradır.

Söhbətə 18 saylı Qalağayın kənd seçki məntəqəsinin sədri Telman Qurbanov da qoşuluraraq dedi ki, seçicilər arasında yaşlı nəslin nümayəndələri də var. Onlardan 3 nəfəri yaşadıqları ünvana qutu aparılması üçün müraciət edib: “Seçicilərimiz arasında yaşı 90-dan çox olan 3 nəfər var. Onlar səsvermədə mütləq iştirak edəcəklərini bildiriblər. İlk dəfə səs verəcək 13 nəfər gənclə görüş keçirməyi qərarlaşdırmışıq. Bundan əlavə, ərazimiuzə yeni gələnlərin qeydiyyata alınmasını da diqqətdə saxlamışıq.

T.Qurbanovun köməyi ilə kəndin ən yaşlı sakinlərindən bir neçəsi ilə əlaqə saxladıq.

**Sərfinaz Ağayeva:** – Mənim 97 yaşım var. Özümü yaxşı hiss edirəm.



Keçmişdə ictimai işlərdə həmişə fəal iştirak etmişəm. Əmək qabaqcılı olmuşam, rayonda keçirilən tədbirlərdə yaxından iştirak etmişəm. Seçkilərdə özüm səs vermişəm. Bu ilin əvvəlində keçirilən prezident seçkilərində Prezident İlham Əliyevə səs vermişəm. Evimiz seçki məntəqəsindən uzaqdır. Demişəm ki, evə qutu gətirsələr, özüm ürəyim istədiyi namizədə səs verəcəyəm.

**Ələsgər Əsədov:** – Doxsan dörd yaşım var. Uzun müddət müəllim işləmişəm.



Necə deyərlər, ziyalı təbəqəsindənəm. Seçkinin dövlətimiz, xalqımız üçün əhəmiyyətli olması barəsində uşaqlarıma, nəvələrimə məlumat verirəm və tövsiyə edirəm ki, onların hər biri səsvermədə mütləq iştirak etsin.

**Minə Həsənova:** – Yaşım 90-ı adlayıb. Ömür boyu pambıqçılıqla məşğul olmuşam. Ona görə də sağlamam. Cavanlığımda qabaqcıl pambıqçı kimi rayonda keçirilən bütün tədbirlərə dəvət olunmuşam. Seçkilərdə həmişə iştirak etmişəm. İnşallah, budəfəki səsvermədə də iştirak edəcəyəm. Seçkilərdə iştirak etmək hər birimizin hüququdur. Bu, həm də bizim vətəndaşlıq borcumuzdur.



***Əliqismət BƏDƏLOV***
***XQ***

# “Əl-Cəzirə” rəsmisi BAMF-ın fəxri mükafatına layiq görülüb



**Dünən Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisində “Əl-Cəzirə” Media Şəbəkəsinin İnsan Hüquqları və İctimai Azadlıqlar Departamentinin rəhbəri Sami Əlhaca BAMF-ın fəxri mükafatının təqdimetmə mərasimi keçirilib.**

Ömrünün 7 ilini Quantanamo həbsxanasında ağır məhbus həyatı yaşamış “Əl-Cəzirə”nin əfsanəvi jurnalisti Sami Əlhaca bu mükafat BAMF ilə “Əl-Cəzirə” Media Şəbəkəsi arasındakı çoxillik əməkdaşlığın inkişafına və regiondan obyektiv informasiyanın beynəlxalq miqyasda yayılmasına göstərdiyi xüsusi xidmətlərinə görə təqdim olunub.

Məlum olduğu kimi, 2019-cu ildə BAMF “Əl-Cəzirə” ilə birlikdə Azərbaycan haqqında 5 unikal təqdimat filminin hazırlanmasının əsas təşkilatçısı olub. Qarabağın azadlığı uğrunda 44 günlük müharibə zamanı “Əl-Cəzirə” media heyətini müşayiət edən BAMF döyüş bölgələrindən 42 reportajın hazırlanmasında iştirak edib. Həmçinin düşmənin təxribat-terrorçu fəaliyyətinə dair ilk beynəlxalq hesabatı 4 dildə hazırlayaraq dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

***XQ***

# SOCAR-ın “Eko park”ına mediatur

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) təşkilatçılığı ilə media nümayəndələri üçün SOCAR-ın “Eko park”ında media-tur və SOCAR-ın “yaşıl enerji” gündəliyi barədə məlumatlandırma sessiyası təşkil olunub.**



“Yaşıl dünya naminə həmrəylik ili”, “Əsrin müqaviləsi”nin 30 illiyi və Milli Mətbuat Günü münasibətilə təşkil olunan tədbirdə əvvəlcə media nümayəndələri “Eko park”ın ərazisində görülən işlər barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, vaxtilə burada mövcud olmuş neft mədəni fəaliyyətini dayandırdıqdan sonra ərazi uzun illər baxımsız vəziyyətdə qalıb. 2008-ci ildə Dövlət Neft Şirkəti tərəfindən ərazinin təmizlənərək yerində park salınması qərara alınıb. Beləliklə, neftlə çirklənmiş bu ərazilər müxtəlif radioaktiv tullantılardan təmizlənərək hazırkı vəziyyətə gətirilib. İndi isə bu ərazilər əsl cənnəti xatırladır.

Bildirildi ki, 20 hektardan artıq ərazidə yerləşən park şərti olaraq üç hissəyə bölünür: açıq şitilxana, qapalı istixana və park ərazisi. Parkın istehsalat ərazisində alternativ enerji istehsal edən qurğular quraşdırılıb. Buradakı külək generatorları, su dəyirmanları və günəş panellərindən alınan təmiz enerjidən, əsasən, gecə saatlarında parkın işıqlandırılmasında istifadə olunur. Bununla yanaşı, ofisin və ekomərkəzin kondisioner və peçləri istisna olmaqla enerji təchizatı da bu qurğulardan alınan enerji hesabına həyata keçirir.

Qeyd olundu ki, parkın açıq sahəsində və istixanada müxtəlif bitkilər yetişdirilir. İstixana şəraitində yetişdirilən bitkilər müəyyən boya çatdıqdan sonra eyni temperatur rejimi şəraitində açıq şitilxanaya köçürülür. Burada adaptasiya mərhələsini keçən həmin bitkilərdən SOCAR-ın idarə və müəssisələrinin ərazilərinin yaşıllaşdırılmasında istifadə olunur.

Gəzinti zamanı, həmçinin jurnalistlərə parkın flora və faunası haqqında ətraflı məlumat verildi. Media nümayəndələri parkın qapalı şitilxana kompleksində yetişdirilən müxtəlif növ bitkilərin bio-ekoloji xüsusiyyətləri və becərilmə üsulları ilə tanış oldular.

Sonra SOCAR-ın mətbuat katibi Orxan Hüseynov media nümayəndələrini 22 iyul - Milli Mətbuat Günü münasibətilə təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuladı. Şirkətin fəaliyyətində media ilə səmərəli əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini diqqətə çatdıran mətbuat katibi bu kimi tədbirlərin kütləvi informasiya vasitələri ilə əməkdaşlığın inkişafına xidmət etdiyini diqqətə çatdırdı.

Daha sonra SOCAR-ın Ətraf mühit ilə bağlı məlumatların açıqlanması və əlaqələrin idarə edilməsi departamentinin rəisi Mustafa Qurbanlı, “Ekol Mühəndislik Xidmətləri” QSC-nin baş direktorunun köməkçisi¬layihə rəhbəri Sabutay Əliyev və “Neftqaztikinti” Trestinin müdiri Qağaməli Seyfullayev təqdimatlarla çıxış etdilər.

Tədbirdə SOCAR-ın “yaşıl” gündəliyi ilə bağlı müzakirələr aparıldı, media nümayəndələrini maraqlandıran suallar cavablandırıldı.

***M.YAQUBZADƏ***
***XQ***

# SOS fəal jurnalistləri mükafatlandırıb



**“Security operation services” Məhdud Məsuliyyətli Cəmiyyət (SOS) Milli Mətbuatın 149-cu ildönümü münasibətilə bir qrup media işçisini mükafatlandırıb.**

SOS-un direktoru Anar Məmmədov media nümayəndələrini Milli Mətbuat və Jurnalistika Günü münasibətilə təbrik edib. O, SOS təşkilatı ilə əməkdaşlıq edən, mühafizə, təhlükəsizlik işinin maarifləndirilməsində əməyi olan media təmsilçilərinə mükafatlar və xatirə hədiyyələri təqdim edib.

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Mədəniyyət TV-nin baş direktori Dilarə Səlim, BDU-nun professoru Qulu Məhərrəmli, Baku TV-nin redaktoru, Rakus.az saytının rəhbəri Əsgər İbrahimov, Azərbaycan Dövlət Televiziyasının rejissoru Şirzad Səmədov, SOCAR-ın əməkdaşı Əsəd Məmmədov jurnalistləri peşə bayramı münasibətilə təbrik ediblər. Mükafata layiq görülənlər isə verilən dəyərə görə minnətdarlıq ediblər.

**XQ**

# Kəlbəcərdə mina partlayıb

**İyulun 19-da Kəlbəcər rayonunun Ağdaban kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina hadisəsi baş verib.**

Bu barədə Baş Prokurorluq, Daxili İşlər, Müdafiə Nazirlikləri və ANAMA-nın mətbuat xidmətlərinin birgə məlumatında deyilir.

Hadisə nəticəsində 1969-cu il təvəllüdlü Hüseynov Xəlifə Həsən oğlu piyada əleyhinə minaya düşərək xəsarət, onun arxasınca hərəkət edən 1978-ci il təvəllüdlü Məmmədov Səməndər Əliqəmə oğlu isə həmin mina partlaması nəticəsində qəlpə yaraları alıb.

Daha sonra hadisə yerinə onlara köməyə gedən 1976-cı il təvəllüdlü Qaraşov Rahim Əşrəf oğlu ikinci minanın partlaması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb.



Faktla bağlı Kəlbəcər Rayon Prokurorluğunda araşdırma aparılır.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 343** **Bakı şəhəri, 17 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”nda və 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076 (Cild I) ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 5.1-1-ci bənd əlavə edilsin:

“5.1-1. Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatını bu Qayda ilə müəyyən edilmiş formalara uyğun tərtib etməli (6 və 7 nömrəli formalar) və hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etməlidir.”;

1.2. 5.2-ci bəndin birinci cümləsinə “Nazirliyi” sözündən sonra “və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi” sözləri əlavə edilsin;

1.3. həmin Qaydaya aşağıdakı məzmunda 5 və 6 nömrəli əlavələr edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 789 (Cild I) ilə təsdiq edilmiş “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbəndə “Nazirliyinə” sözündən sonra “və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə” sözləri əlavə edilsin;

2.2. 4-cü hissə üzrə:

2.2.1. 4.1-ci bəndin birinci cümləsində “15 (on beş) gün” sözləri “15 (on beş) iş günü” sözləri ilə, ikinci cümləsində “15 (on beş) günədək” sözləri “15 (on beş) iş günümədək” sözləri ilə əvəz edilsin;

2.2.2. 4.1-1-ci bənddə “sonrakı gün” sözləri “sonrakı iş günü” sözləri ilə əvəz edilsin;

2.2.3. 4.2-ci bəndin birinci cümləsindən “illər üzrə tərtib edilən” sözləri çıxarılsın;

2.2.4. 4.3-cü bəndin üçüncü cümləsi çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 344** **Bakı şəhəri, 18 iyul 2024-cü il**

**“Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2129 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 345** **Bakı şəhəri, 18 iyul 2024-cü il**

**“Dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi və “Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli 108 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və “Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** “Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 735 (Cild I) ləğv edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 346** **Bakı şəhəri, 17 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı”nın təsdiq edilməsi haqqında” 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli və “Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi xidmətlərə görə ödənilən xidmət haqqı məbləğləri”nin təsdiq edilməsi haqqında” 2020-ci il 10 yanvar tarixli 3 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 888-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2185 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1133 (Cild I); 2024, № 4, maddə 440) ilə təsdiq edilmiş “Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin Siyahısı”na aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

“4. Bu Siyahının 1-ci hissəsi, 2.9.2-2.9.4-cü yarımbəndləri və 2.10-cu bəndi “Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanı ilə müəyyən edilmiş tikinti obyektlərinin istismarına icazə verilməsi hallarına şamil edilmir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 3 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 61 (Cild I); 2024, № 3, maddə 299) ilə təsdiq edilmiş “Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi xidmətlərə görə ödənilən xidmət haqqı məbləğləri”nin “Qeydlər”ində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6-cı hissəyə “tikinti obyektlərinə” sözlərindən sonra “(“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun 10-2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

“11. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun 10-2-ci maddəsinə uyğun olaraq tikinti obyektlərinin (çoxmənzilli binalar istisna olmaqla) istismarına icazə verilməsi ilə bağlı sənədlərin kameral şəraitdə təhlili və bununla əlaqədar məlumatların uçotunun təşkili üçün Cədvəlin 5-ci hissəsi ilə müəyyən edilən xidmətlərə görə haqqın məbləği həcmində xidmət haqqı tətbiq edilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# İtaliya ölkəmizin Avropada aparıcı iqtisadi tərəfdaşıdır

**İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın ən mühüm siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. Ölkələrimiz arasında əlaqələr hər zaman yüksək səviyyəsi, çoxşaxəliliyi və nümunəvi dinamikası ilə seçilib. İtaliya, həm də ikitərəfli və çoxtərəfli müstəvidə Azərbaycanın strateji tərəfdaşıdır.**



İki ölkə arasında iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun İtaliyaya səfəri çərçivəsində əməkdaşlığın müxtəlif sahələri ilə bağlı müzakirələr aparılıb. Bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bu ölkənin şirkətlər və "Made in Italy" naziri Adolfo Urso ilə görüşündə bildirilib ki, Azərbaycan və İtaliya çoxşaxəli strateji tərəfdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət verir. Görüşdə ölkəmizin Şərqlə Qərbi birləşdirən mühüm ticarət marşrutu olan Orta Dəhlizin inkişafında rolu qeyd edilib, sahibkarlar üçün yaradılmış cəlbedici investisiya imkanları barədə məlumat verilib. Görüş zamanı, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində çalışan İtaliya şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyəti vurğulanıb, işgüzar dairələr arasında tərəfdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini ilə görüşdə isə energetika sahəsində əməkdaşlığın müsbət nəticələri qeyd olunub. Bildirilib ki, enerji sahəsində əməkdaşlıq ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin mühüm hərəkətverici qüvvəsidir. Görüşdə Cənub Qaz Dəhlizinin seqmentlərindən biri olan Trans-Adriatik Boru Kəmərinin (TAP) həyata keçirilməsi əlaqələrimizdə mühüm tarixi mərhələ kimi dəyərləndirilib. Bununla yanaşı, qeyd olunub ki, Azərbaycan "yaşıl enerji"nin tədarükü, "yaşıl" hidrogen istehsalı və nəqli sahəsində lazımi təcrübəyə və nou-hauya malik İtaliya şirkətləri ilə əməkdaşlıqda maraqlıdır. Görüşdə Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən Avropaya "yaşıl enerji"nin ixracını nəzərdə tutan layihənin "yaşıl" keçidin dəstəklənməsində önəmi vurğulanıb. Nazirlər, həmçinin COP29-un prioritetləri, qlobal miqyasda faydaları və potensial tərəfdaşlıq imkanlarına dair fikirlərini bölüşüblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov İtaliyaya səfəri çərçivəsində bu ölkənin kənd təsərrüfatı, ərzaq suverenliyi və meşə təsərrüfatı naziri Françesko Lollobrigida ilə də görüşüb. Diqqətə çatdırılıb ki, İtaliya şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yenidənqurma layihələrinə cəlb olunması möhkəm iqtisadi əlaqələrin göstəricisidir və bu tərəfdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanlar mövcuddur. Xüsusilə, kənd təsərrüfatı, aqrar maşınqayırma, irriqasiya sahələrində İtaliyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və bu istiqamətdə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır.

Görüşdə dayanıqlı iqtisadi artım, resurslardan səmərəli istifadə və ərzaq təhlükəsizliyinin təminatı üzrə hədəflər müzakirə olunub. Tərəflər bu istiqamətdə tərəfdaşlığı inkişaf etdirmək və mövcud potensialı reallığa çevirmək niyyətini ifadə ediblər.

Xatırladaq ki, artıq uzun illərdir ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı rolunu oynayır. Ölkəmizin istər ticarət dövriyyəsində, istərsə də ixrac əməliyyatlarında İtaliya öz birinciliyini qorumaqdadır. Elə 2023-cü ildə də Azərbaycanın əsas ticarət tərəfdaşı məhz İtaliya olub. Belə ki, ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 15 milyard 685 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, il ərzində Azərbaycandan İtaliyaya 15 milyard 208 milyon dollar dəyərində məhsul ixrac olunub. Yeri gəlmişkən, ötən il Azərbaycandan İtaliyaya 40 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları göndərilib. İl ərzində İtaliyadan isə ölkəmizə 477 milyon 903 min dollar dəyərində məhsul idxal edilib.

Ölkələrimiz arasında qarşılıqlı ticarət əməliyyatları 2024-cü ilin əvvəlindən də davam etdirilib. Belə ki, cari ilin yanvar-may aylarında Azərbaycanla İtaliya arasında ticarət əməliyyatlarının həcmi 4 milyard 409 milyon 619 min ABŞ dolları təşkil edib ki, bu da ölkəmizin ümumi ticarət dövriyyəsinin 23,91 faizi həcmində olub. Hesabat dövründə Azərbaycan İtaliyaya 4 milyard 228 milyon 930 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu isə Azərbaycanın ümumi məhsul ixracının 37,97 faizi deməkdir. Eyni zamanda, yanvar-may aylarında ölkəmiz İtaliyadan 180 milyon 689 min ABŞ dolları həcmində müxtəlif məhsullar idxal edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,3 faiz çoxdur.

İtaliya, həm də Azərbaycanın Avropa məkanında ən böyük enerji tərəfdaşıdır. Məlum olduğu kimi, uzun illərdir ki, ölkəmizin neft ixrac etdiyi ölkələrin siyahısında birincilik məhz İtaliyaya məxsusdur. Bu tendensiya cari ilin ilk yarısında da davam edib. Belə ki, hesabat dövründə Azərbaycan 20 ölkəyə, ümumilikdə, 7 milyard dollar dəyərində 11,1 milyon ton neft ixrac edib ki, bu siyahıda İtaliya yenə birinci olub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-iyun aylarında bu ölkəyə 2,7 milyard dollar dəyərində 4,3 milyon ton "qara qızıl" göndərilib.

2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP-ın istismara verilməsi ilə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Hazırda İtaliya Avropa məkanında Azərbaycan qazını idxal edən lider ölkədir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan bu ölkənin qazla təchizatında ilk üçlükdə qərarlaşıb ki, bu da enerji sahəsində uğurlu əməkdaşlığı təsdiq edən mühüm məqam kimi diqqət çəkir. Müqayisə üçün qeyd edək ki, indiyə kimi Avropaya tədarük edilmiş 37,9 milyard kubmetr qazın 30 milyard kubmetrdən çoxu məhz İtaliyanın payına düşür. Cari ilin yanvar-may aylarında Azərbaycandan bu ölkəyə 4 milyard 129,5 milyon kubmetr "mavi yanacaq" ixrac olunub. Ümumilikdə isə, bu il Azərbaycandan İtaliyaya 9,6 milyard kubmetr qaz tədarükü proqnozlaşdırılır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Naxçıvanın xarici ticarət əlaqələri artıb

**Ölkəmizdə özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın təmin edilməsi, dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi Naxçıvan Muxtar Respublikasında da rəqabətqabiliyyətli sahibkarlıq mühitinin yaradılmasına şərait yaradıb. Özəl sektorda yeni yanaşmaların tətbiqi, xüsusi ilə yerli xammal potensialından istifadə edilməklə ixracyönümlü məhsul istehsalına nail olunması əsas istiqamət kimi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ında öz əksini tapıb. Artıq bu istiqamətdə müxtəlif tədbirlərin icrasına başlanılıb. Xüsusilə də ixrac coğrafiyasının şaxələndirilməsi, ixracyönümlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması davam etdirilir.**



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2024-cü ilin ilk 6 ayı ərzində özəl sektorun inkişafı və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilib, sahibkarlara 46 lisenziya verilib, büdcəyə 19,6 min manat vəsait ödənilib. Həmçinin müvafiq qurumlar tərəfindən verilmiş 1447 icazə reyestrdə qeydiyyata alınıb və bundan 55,9 min manat vəsait daxil olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə icazələr 8,4 dəfə, verilmiş icazələrdən büdcəyə daxilolmalar isə 2 dəfə artıb.

Hazırda muxtar respublikada sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərindən biri ixracyönümlü məhsul istehsalı üzərində qurulub. Digər tərəfdən, Naxçıvan Muxtar Respublikasında istehsal edilən çox sayda məhsul ixrac baxımından perspektivli hesab olunur. Buna görə də istehsalla yanaşı, məhsul ixracının marketinqi də diqqət mərkəzində saxlanılır. Nazirliyin məlumatına görə, bu ilin ilk yarısında Naxçıvan şirkətlərinin xarici ölkələrdə 7-si sərgi olmaqla 8 beynəlxalq tədbirdə iştirakı təmin edilib. Bununla bərabər, iqtisadi fəallığın artırılması, ixracyönlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə Ankarada Türkiyə Respublikasının Ticarət Nazirliyində, Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyində yüksək səviyyəli görüşlər keçirilib. Paralel olaraq Türkiyə Respublikasının Ticarət Nazirliyinin departament rəhbəri Mustafa Yavuzun rəhbərlik etdiyi nümayəndə heyətinin bu ilin may ayında muxtar respublikaya səfəri çərçivəsində qarşılıqlı görüşlər keçirilib, xarici ticarət dövriyyəsinin artırılması və sərhədyanı ticarətin yarada biləcəyi imkanlar müzakirə olunub. Həyata keçirilən bu kimi tədbirlər xarici ticarət dövriyyəsinin də inkişafına təsir göstərib. Belə ki, bu ilin yanvar-iyun aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 65,9 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin 7,6 faizi ixrac olunmuş məhsulların, 92,4 faizi isə idxal məhsullarının payına düşüb. Muxtar respublikada istehsal olunan məhsullar əsasən Türkiyə, İran, Gürcüstan, Rusiya, Yəmən, Qırğızıstan, İraq, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə ixrac olunub. İxracyönümlü məhsullar içərisində mineral sular, vafli və tütün məmulatları, elektrik enerjisi, mebel, tikinti materialları və travertin daş məhsulları üstünlük təşkil edib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycan "asan kredit"ə görə 190 ölkədən öndədir

**"Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun irəli sürdüyü təşəbbüslərə və müvafiq tədbirlərin icrası istiqamətində əldə edilən nailiyyətlərə görə, Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında kreditlərin əldə edilməsinin asanlığı baxımından 190 ölkə arasında 1-ci yerə çıxıb.**




Bunu Prezident Administrasiyasının (PA) İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın katibliyinin rəhbəri Vüsal Şıxəliyev "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun iclasında bildirib.

"Bu, həmin sahənin inkişafında kifayət qədər baza yaradıldığını göstərir, bizə kreditlərin əlçatanlığı sahəsində nail olduğumuz yüksək nəticənin maliyyə sektorunun digər alt komponetlərində də əldə edilməsi üçün stimul verir və görülən işlərin prioritetlərini müəyyənləşdirir", – deyə o qeyd edib.

"İşçi qrupu bu ilin əvvəlindən başlayaraq Dünya Bankının yeni metodoloji sənədinə əsasən, diaqnostika həyata keçirir, paralel olaraq özəl sektorda da sorğular aparır. Əldə olunmuş məlumatlar və aparılmış təhlillər nəticəsində yeni istiqamətləri özündə əks etdirən Yol Xəritəsi komissiyaya təqdim edilib. Komissiya sədrinin təsdiqlədiyi bu sənəddə əks olunmuş tədbirlərin bir çoxu bilavasitə maliyyə bazarlarının inkişafına və inklüziv maliyyə xidmətlərinin yaradılmasına töhfə verəcək", – deyə PA rəsmisi əlavə edib.

***XQ***

**Ölkənin ərzaq təhlükəsizliyi onun iqtisadi siyasətinin prioritet istiqamətlərindən sayılır. Bu yöndə tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı təyinatlı torpaqlardan, xüsusən də əkin sahələrindən səmərəli istifadənin təşkili olmadan mümkün deyil. Bu baxımdan kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin təşkili aqrar sektor qarşısında duran ən önəmli məsələlərdən biridir.**

Respublikamızda ötən əsrin 90-cı illərində aparılmış torpaq islahatı zamanı əkin sahələrinin 90 faizdən çoxu kənd ərazisində yaşayan ölkə vətəndaşlarına pay şəklində təmənnasız olaraq verilmişdir. Bunun nəticəsində 41-i dövlət mülkiyyətində saxlanılmaqla 1964 kənd təsərrüfatı müəssisəsinin (kolxoz və sovxozların) əkin sahələri kənd sakinləri arasında paylanmış və bununla da ölkədə 83 min ailənin 3 milyon 300 min üzvü torpaq mülkiyyətçisinə çevrilmişdir. Bu da öz növbəsində aqrar sahədə çoxsaylı xırda təsərrüfatçılığın yaranmasına səbəb olmuşdur. Aqrotexniki qaydaların pozulması, torpaqların deqradasiyası- şorlaşması, şorakətləşməsi və irriqasiya eroziyasının geniş vüsət alması xırda torpaq mülkiyyətçiliyinin yaratdığı fəsadların yalnız bir hissəsi kimi nəzərə çarpmışdır.

# Torpaq islahatının yeni mərhələsi

## *Xırda fermerlərin birləşməsi uğurları artıracaq*



Problemlər tək bunlarla bitmir. Xırda fermer təsərrüfatlarında ümumi məhsuldarlıq həcminin fermerlərin gözləntilərindən aşağı səviyyəyə düşməsi, çəkilən xərclərin artması səbəbindən fermerlərdə təsərrüfatçılığa marağı azaldır və torpaqların istifadəsiz və ya təyinata uyğun gəlməyən məqsədlər üçün istifadəsinə yol açmış olur.

Ölkə rəhbərliyi tərəfindən bu sahəyə həmişə böyük diqqət və dəstək göstərilir. Belə ki, bu sahənin inkişafı üçün müvafiq normativ-hüquqi sənədlər, dövlət proqramları qəbul olunmuş, ciddi tədbirlər sistemi həyata keçirilmişdir. Bunlardan bir neçəsinin – "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında kənd təsərrüfatı torpaqlarının koperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqamı" və digər sənədlərin adını çəkə bilərik.

Torpaqlardan istifadəyə dair həyata keçirilən məqsədyönlü siyasətə və ardıcıl dövlət tədbirlərinə baxmayaraq torpaq istifadəçiliyi sahəsində problemlər bu gün də qalmaqda və öz həllinin tapılması zamanını gözləməkdədir. Bunlar içərisində əsas problemlər – torpaq islahatları zamanı ortaya çıxmış torpaq parselləri sahələrinin həddən artıq kiçik olması, həndəsi ölçülərin aqrotexnoloji tədbirlər sisteminin həyata keçirilməsi üçün uyğunsuzluğu, həmçinin bir mülkiyyətçiyə mənsub torpaq sahəsinin pərakəndə formada yerləşməsi və digər əsaslı səbəblərdir.

Araşdırmalar göstərir ki, 2022-ci ilin məlumatlarına əsasən, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan təsərrüfatların sayı 944 min 768 təşkil etmişdir. Bu təsərrüfatların sərəncamındakı əkin sahələri 1 milyon 537 min 778 hektar təşkil etmişdir ki, onların 61,2 faizinin sahəsi 1 hektardan az olan təsərrüfatlar, 34,2 faizi ölçüləri 1-5 hektar arasında dəyişən təsərrüfatlar təşkil etmişdir. Yalnız təsərrüfatların 5 faizinin mülkiyyətində və istifadəsində olan torpaqların sahəsi 5 hektardan çox olmuşdur. Bütün bunlar əkin sahələrinin həddən artıq fraqmentləşməsindən və bu formada onlardan səmərəli istifadənin mümkünsüzlüyündən xəbər verir.

Ümumilikdə, xırda təsərrüfatçılıq səbəbindən kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadədə yaranmış çatışmazlıqlar aşağıdakılardan ibarətdir:

– kənd təsərrüfatı məhsulları istehsal edilən təsərrüfatlarda torpaq sahələrinin ölçülərinin həddən artıq az olması;

– bir təsərrüfatın istifadəsindəki torpaq sahələrinin müxtəlif ərazilərdə yerləşməsi və aralarında məsafənin böyük olması;

– torpaq sahələrinin həndəsi ölçülərinin səmərəli istifadə üçün uyğunsuzluğu;

– fermer təsərrüfatlarında çox aşağı səviyyədə gəlir əldə edilməsi;

– torpaqlarda müasir aqrotexnoloji tədbirlərin (gübrələmə, suvarma və maşın və mexanizmlərdən istifadə və s.) həyata keçirilməsinin mümkünsüzlüyü;

– səmərəsiz istifadə səbəbindən torpaqların həm potensial, həm də effektiv münbitliyinin aşağı düşməsi;

– bir sıra hallarda torpaqlardan təyinatına uyğun istifadə olunmaması;

– torpaqların istifadəsiz qalması (torpaqların kolluğa çevrilməsi, bataqlaşması və s.)

– kənd təsərrüfatı məhsullarının istehsalının (həcminin və məhsuldarlığının) aşağı səviyyədə olması və bu məhsulların idxala yönləndirilən məhsullarla rəqabətə davamlı olmaması və s.;

Xırda təsərrüfatçılıq səbəbindən torpaq istifadəçiliyində olan çatışmazlıqları aradan qaldırmağın vacibliyinə Prezident İlham Əliyev Nazirlər Kabinetində keçirdiyi iclasların birində çıxışı zamanı toxunmuş və kiçik torpaq sahələrinin tam könüllük əsasında birləşdirilərək iri fermer təsərrüfatlarının yaradılması məsələsinin önəmindən danışmışdır. Dövlət başçısı –"kiçik pay torpağı olan vətəndaşların öz torpaqlarını birləşdirərək kooperativ yaratmasını həmişə dəstəkləmiş və təbliğ etmişik"– demişdir.

Ölkə rəhbərinin bu məsələyə xüsusi diqqəti nəticəsində artıq ölkəmizdə böyük təsərrüfatların yaradılması istiqamətində ciddi addımlar atılmaqdadır. Bunun bariz nümunəsi kimi, 2016-cı il iyulun 18-də "Torpaqların kooperasiyası haqqında" qanunun qəbul olunması və bunun ardınca "Azərbaycan Respublikasında kənd təsərrüfatı torpaqlarının kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqamı"nın qəbulunu göstərmək olar.

Kənd təsərrüfatı kooperativlərinin yaradılması torpaqlardan daha səmərəli istifadəyə imkan verməklə yanaşı, fermer təsərrüfatlarının gəlirlərinin artmasına öz müsbət təsirini göstərəcək. Kooperativlərin yaradılması, həmçinin rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalını və bu məhsulun xarici bazarlara çıxışını asanlaşdırmalıdır. Bundan əlavə fermerlər torpaq və əmlakı birləşdirməklə kooperativlərə iri investisiya layihələrini cəlb etmək, mövcud texnikadan daha səmərəli istifadə etmək, daha uyğun şərtlərlə yeni müasir texnikanı ala bilmək imkanlarını qazanmış olurlar. Bütün bunlar və bununla bağlı digər məsələlər, "Kənd təsərrüfatı kooperasiyası" haqqında Qanunun müddəalarında öz əksini tapmışdır. "Torpaqların kooperasiyası" haqqında Qanunun 3-cü bəndində deyilir: "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaq, kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan vermək, kooperasiya iştirakçılarının iqtisadi, sosial və digər maraqlarını qorumaqdır".

Artıq bu qanun əsasında Sabirabad rayonunun Beşdəli və Yaxa Dəllək kəndlərinin xırda torpaq mülkiyyətçiləri birləşərək, kəndlərində "Birlik" İstehsal Kooperativi yaratmışlar. Kooperativin ümumi ərazisi 850 hektar əkin sahəsini əhatə edir, bu isə orta hesabla adambaşına 1,25 hektar torpaq sahəsi deməkdir. Bundan əlavə rayon ərazisində Axısxa kənd sakinlərinin öz pay torpaqlarını birləşdirməsi nəticəsində "Axısxalılar Toxum İstehsal Kooperativi" də yaradılıb. Bu, Azərbaycanda ilk toxum istehsalı kooperatividir. Bu birlikdə "Kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"na və Strateji Yol Xəritəsinə uyğun olaraq vətəndaşların könüllü birləşməsi əsasında təsis olunub. 231 ailədən 746 nəfərin təmsil olunduğu kooperativin sərəncamında 730 hektar torpaq sahəsi var.

Bütün bunlarla yanaşı xırda təsərrüfatçılığın tədricən aradan qaldırılması, iri fermer təsərrüfatlarının yaradılması zərurətindən və eyni zamanda inkişaf etmiş xarici ölkələrin bu sahə üzrə təcrübəsindən irəli gələrək, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə Texniki Əməkdaşlıq Proqramı çərçivəsində Salyan rayonunun Şorsulu kəndində torpaqların konsolidasiya olunması üzrə pilot layihə həyata keçirilmişdir.

***Teymur NİZAMZADƏ,***
***Bakı Dövlət Universitetinin dosenti, coğrafiya üzrə fəlsəfə doktoru***




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycanın “yaşıl artım” hədəfləri




(əvvəli 1-ci səhifədə)

Ölkədə “yaşıl enerji”nin reallaşdırılması ilə bağlı normativ hüquqi bazanın formalaşdırılması da diqqətdə saxlanılıb. “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiqlənib. “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nda bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların səmərəli fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda fəal istehlakçıların dəstəklənməsi və “yaşıl sertifikatlar”la bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Hazırda ölkəmizdə “yaşıl enerji”dən istifadənin genişləndirilməsi məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı planları, “yaşıl enerji”nin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, “yaşıl hidrogen”, elektromobillik və digər məsələlər haqqında danışıqlar aparılır. Ümumiyyətlə, “yaşıl” inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

Dördüncü Sənaye İnqilabı adlandırılan yeni dövrün əsasını təşkil edən “yaşıl enerji” ənənəvi enerji mənbələrini – daş kömür, neft-qaz kimi sahələri geridə qoyacaq. Yeni istehsal olunan mühərriklər, maşınlar tamamilə hidrogen, qaz və elektrik enerjiləri ilə işləyəcək.

Onu da deyək ki, son vaxtlar respublikamızda “yaşıl enerji”nin ixrac potensialının gücləndirilməsi ilə bağlı ciddi layihələr icra edilib. Məsələn, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan dördtərəfli müqavilənin gerçəkləşdirilməsi ilə əlaqədar genişmiqyaslı işlər görülüb, keçirilən tenderin nəticəsində artıq qalib şirkətlə müqavilə imzalanıb.

Məlum olduğu kimi, bu sazişdə Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan “yaşıl enerji”nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib.

Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən “yaşıl enerji”nin Avropaya ixracına imkan yaradacaq. Beləliklə, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.



### Ekspert rəyi



**Samir HEYDƏROV,
iqtisadçı-ekspert**

Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi edəcəyi önəmli hadisədir. Miqyasına görə, heç də BMT-nin Baş Assambleyasından geri qalmayan bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin artan nüfuzunun ən bariz göstəricilərindən biridir. Yeri gəlmişkən, respublikamızın BMT-nin Təhlükəsizlik Şurasına üzvlüyü, eyni zamanda ölkəmizin Qoşulmama Hərəkatında sədrliyi ilə paralel, bu, haqlı olaraq Azərbaycan diplomatiyasının ən böyük uğurlarından bir kimi dəyərləndirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması istiqamətində görülən işlərə də toxunmaq istərdim. Xatırladım ki, işğaldan azad olunmuş ərazilər Yaşıl Enerji Zonası elan edilib. Beynəlxalq məsləhətçi şirkətin cəlb olunması ilə həmin ərazilər üçün Yaşıl Enerji Zonası konsepsiyası hazırlanıb. Bununla bağlı Nazirlər Kabinetinin xüsusi sərəncamı ilə Tədbirlər Planı təsdiqlənib və həmin plan tam şəkildə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na daxil edilib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda ictimai binaların günəş panelləri ilə təchiz olunması, yolların və küçələrin işıqlandırılmasında bərpaolunan mənbələri əsaslı avadanlıqlardan istifadə, bununla yanaşı dayanacaqlarda və digər “yaşıl enerji” konseptləri də nəzərdə tutulur. Qazlaşmayan binalarda isə təbii ki, artıq istilik enerjisinin alınması üçün müəyyən qurğuların quraşdırılması və isti suyun əldə olunması üçün müəyyən yanaşmaların tətbiqi də planlaşdırılır.

“Yaşıl enerji” zonasının yaradılması ilə bağlı 2022–2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də əhatə edir. Bu çərçivədə azad olunan ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampalarla təchiz olunmuş və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Əlbəttə, sadalanan layihələr davamlı xarakter daşıyır və bütün səylər də bu innovativ təcrübənin geniş tətbiqinə, Qarabağ və Şərqi Zəngəzurun enerji səmərəliliyində nümunəvi bölgəyə çevirilnəsinə yönəldilir. Şübhəsiz ki, əsas məqsəd də dövlət başçısının vurğuladığı kimi, Qarabağ və Zəngəzurun dünyanın qibtə edəcəyi şəkildə qurulmasıdır.

Ötən il, həmçinin “yaşıl enerji” ilə bağlı ilk Yaşıl Enerji Məşvərət Şurası keçirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması ilə bağlı tədbirlər reallaşdırılıb. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı istiqamətində də çox ciddi layihələrin icrasına başlanılıb.

***Vaqif BAYRAMOV
XQ***

## “AzərEnerji”nin ekoloji layihələri



***Qarabağ və Şərqi Zəngəzur regionunda dairəvi elektrik təchizatını gücləndirmək, bu ərazilərdə istehsal olunan “yaşıl enerji”ni enerjisistemə ötürmək, o cümlədən ixrac etmək və digər mühüm əhəmiyyətli perspektiv məqsədlər üçün həyata keçirilən işlər çərçivəsində 330 kilovoltluq “İmişli” yarımstansiyası “AzərEnerji” tərəfindən genişləndirilərək tam yenidən qurulur.***

Bu yarımstansiya da digər yarımstansiyalar kimi dördüncü sənaye inqilabına uyğun olaraq perspektiv nəzərə alınmaqla müasir avadanlıqlarla təchiz edilir.

Buna qədər isə “İmişli” yarımstansiyasından “Cəbrayıl” Enerji Qovşağına 130 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib və işlər yekunlaşıb, xətt gərginlik altındadır.

Qeyd edək ki, ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsinin tərkib hissəsi olaraq 330 kilovoltluq “İmişli” yarımstansiyasından başqa 330 kilovoltluq “Ağcəbədi” yarımstasiyası da “AzərEnerji” tərəfindən genişləndirilərək yenidən qurulub və bu yarımstansiyadan Cəbrayıla 132 kilometr məsafədə 330 kV-luq ötürmə xətti çəkilib. Eyni zamanda beynəlxalq əhəmiyyətli “Cəbrayıl” Enerji Qovşağı tikilərək istismara verilib. “İmişli” yarımstansiyasında isə işlərin yaxın aylarda başa çatdırılması nəzərdə tutulub.

***XQ***

# Bakının COP29 hazırlıqları

**Noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın imkanlarının növbəti nümayişi olacaq. COP29 təkcə ölkəmiz üçün əhəmiyyət kəsb etməyəcək, bu tədbir çərçivəsində həm də dünya dövlətlərinin iqlim dəyişikliyinə qarşı mübarizədə oynadığı rol diqqət çəkəcək. Bütün bunlarla yanaşı, respublikamıza gələn çoxsaylı qonaqlarda paytaxtımızın gözəlliyi, sakinlərin qonaqpərvərliyi barədə aydın təsəvvür yaranacaq.**



Prezident İlham Əliyevin Bakıda “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda keçirilən yüksək səviyyəli 29-cu toplantının iştirakçılarına müraciətində bu barədə deyib: “Artıq uzun zamandan bəri iqlim dəyişmələri ilə mübarizə qlobal gündəlikdə duran ən vacib və prioritet məsələlər sırasındadır. Bəşəriyyətin ortaq problemi olan iqlim böhranı və onun fəsadları ölkələrin dayanıqlı inkişafına və rifahına əngəl törətməklə yanaşı, sadə insanların da gündəlik həyatlarına və yaşam tərzlərinə əhəmiyyətli dərəcədə təsir göstərir”.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, “yaşıl”, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səyini əsirgəmir.

Bu, Bakının timsalında aydın nəzərə çarpır. Paytaxtımız COP29 kimi nüfuzlu tədbirə ciddi hazırlaşır, şəhərdə genişmiqyaslı abadlıq-quruculuq tədbirləri sürətlə həyata keçirilir. “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC-dən aldığımız məlumata görə hazırda şəhər böyük bir tikinti meydançasını xatırladır, küçə və prospektlər, yollar, yaşayış və inzibati binaların fasadları, dam örtükləri, eyvanlar təmir edilir, rənglənir, səki kənarlarına yeni bardürlər quraşdırılır, yol kənarlarına dekorativ daş döşənir.

Sadalananlarla yanaşı, köhnə parklar yenilənir, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun dizaynda yenidən qurulur, müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılır, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarələr abadlaşdırılır, istirahət guşələrində güllər və həmişəyaşıl kollar əkilir.

Hazırda şəhər ərazisində 10 meqa park salınır, bəzi parkların ərazisi artırılır. Ölkə başçısının müvafiq sərəncamı ilə Mərkəzi Nəbatat və Mərdəkandakı Dendralogiya parklarında əsaslı təmir-yenidənqurma işləri görülür, bu istirahət məkanlarının ərazilərində yeni yaşıllıq sahələri yaradılır, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ləğv edilir. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir olunur, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılır.



Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. “Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Yeni parkların salınması, köhnələrinin müasirləşdirilməsi COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

Paytaxtda aparılan geniş tikinti-quruculuq işləri çərçivəsində istismar müddəti bitmiş qəzalı bina və tikililər də sökülür və həmin ərazilərdə parklar salınır. Bu da öz növbəsində paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin mühüm tərkib hissəsi olmaqla yanaşı, ətraf ərazilərdə yaşayan sakinlərin istirahətinin yüksək səviyyədə təşkil edilməsinə geniş imkanlar yaradır.

İ.Kərimov daha sonra dedi: – Bir neçə il əvvəl salınmış “Gənclik”, “Nizami Gəncəvi”, “Qış”, “Çəmbərəkənd” və bir sıra digər parklarda sakinlər və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb, müasir idman və uşaq əyləncə qurğuları, söhbətgahlar, köşklər quraşdırılıb.

Hazırda Xətai rayonunda yerləşən “Sevgi” parkı genişləndirilir. Bununla əlaqədar şəhərin əsas magistral yollarından olan Yusif Səfərov küçəsinin ətrafında yerləşən və istismar müddəti bitmiş tikililər sökülür. Bu ərazidə yaşayan sakinlər və obyekt sahibləri mövcud qanunvericiliyə uyğun kompensasiya ödənilməsi şərti ilə köçürülür. Yaxın günlərdə sökülən tikililərin ərazisi abadlaşdırılaraq adıçəkilən parka birləşdirilir.

Bu gün Mərkəzi parkın 3-cü hissəsində genişləndirmə-abadlıq işləri görülür. Nərimanov rayonunun Ceyhun Hacıbəyli, Nəsib bəy Yusifbəyli, Vaqif küçələrinin kəsişməsində, keçmiş antenna sahəsinin ərazisində yeni meqapark salınır.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Bakı şəhərində aparılan geniş miqyaslı abadlıq-quruculuq işləri çərçivəsində ümumi sahəsi 3,5 hektar olan ərazidə, metronun “28 May” stansiyasının və Dəmir yol vağzalının qarşısındakı meydanda da əsaslı təmir-yenidənqurma işlərinə başlanılıb.

Xarici mütəxəssislərin iştirakı ilə xüsusi olaraq hazırlanan və müasir tələblərə cavab verən layihə sənədlərinə əsasən, burada piyadaların hərəkəti üçün təhlükəsiz zona yaradılacaq və yalnız ictimai nəqliyyatın girişinə icazə veriləcək. Meydanla yanaşı, ətraf ərazi də abadlaşdırılacaq.

Şəhərin sanitar təmizliyinin qorunması üçün mütəmadi olaraq iməciliklər keçirilir, küçələr, ağaclar, binalar yuyulur, kol və güllər, qazon örtüyü suvarılır.

Görülən bu işlər şəhər sakinləri və paytaxtımıza gələn qonaqlar tərəfindən çox müsbət qarşılanır. Təmiz küçə və parklar insanlarda xoş təəssürat oyadır.

Paytaxtda genişmiqyaslı tədbirlər mütəxəssislərin, o cümlədən tanınmış memarların, ictimai xadimlərin rəyi nəzərə alınmaqla həyata keçirilir. Bununla bağlı Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə deyir: – Sakinlərimiz bilməlidirlər ki, təmir işləri kortəbii aparılmır. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən xüsusi komissiya yaradılıb. Bu komissiyaya şəhər icra hakimiyyəti, Mədəniyyət Nazirliyi, Şəhərsalma və Arxitektura Komitəsi və “Bakı Abadlıq Xidməti” MMC-nin nümayəndələri daxildir və Memarlar İtttifaqı ilə daim əlaqədədirlər, qarşıya çıxan hər hansı mübahisəli məsələ birgə məsləhətləşilir. Biz də bacardığımız dərəcədə onları istiqamətləndiririk. İllər boyu baxımsız qalan bir sıra qədim binalarda aparılan təmir-bərpa işləri isə heç bir narahatlıq doğurmamalıdır. Belə bir proses, əslində, həmin binaların ömrünün uzadılmasına xidmət edir.

***Pünhan ƏFƏNDİYEV
XQ***




# Qadınlar Şuşaya getmişdilər...

## Arzular gerçəkləşəndə

Ayağımı avtobusdan yerə qoyar-qoymaz içimdə bir gizilti duydum. Sanki cərəyan sancdı. Düşündüm: "Addımımı hara atım? Torpağın hansı hissəsinə ayaq basım ki, ora şəhid qanı tökülməmiş olsun". Özümü havada hiss edirdim. Ayağımın torpağa dəydiyini duymurdum, elə bil, boşluqda yeriyirdim.

Əvvəllər də yağış yağanda igidlərimizin şəhid olduqları məkanları xatırlayırdım. Yağışın onların torpağa tökülmüş müqəddəs qanlarını bir az da dərinə apardığını fikirləşirdim. Axı su torpağı palçıq, qan isə Vətən eləyir.

Yolboyu Füzulinin xarabalığa çevrilmiş kəndləri düşmənə nifrətimi birə-beş artırmışdı. Yer üzündə ermənidən yırtıcı, xain toplum varmı, görəsən, deyə öz-özümə sorğu-sual etmişdim. O qədər xəyala dalmışdım ki, 100 kilometri aşıb Şuşaya necə çatdığımızı da bilmədik...

Şuşada qan töküb can verənlərimizin ruhları başımızın üstündə gəzir. Şuşa şəhidlərindən olanlardan yazdığım yazılar gözüm önünə gəlir. Hanı ağdərəli, noyabrın 7-də şəhid olan baş çavuş Elvin Abbasov, Şuşa alınan gün şəhidliyə ucalan bakılı Fərid Əsgərov, beyləqanlı Hikmət Abbaslı, gəncəli İsa Abbasov, iyulun 15-də ad günü qeyd edilən naxçıvanlı mayor Vüsal Vəliyev, Şuşada vuruşmağa gedərkən şəhid olmuş Vüqar Namazov, Seymur Mehdiyev və digər ərənlərimiz? Səsimə səs verən yoxdur. Amma əminəm ki, onların ruhları bizi eşidir, görür...

Bu gün isə Şuşanın başında nə duman gördüm, nə qırmızı köynəkli, yaşıl ətəkli qızlara rast gəldim. Əvəzində bizi açıq səma, Cıdır düzündən əsən meh qarşıladı. "İslam Dünyasında Qadınlar: ənənələr və çağırışlar" adlı konfransın iştirakçıları, Vaqif poeziya günlərinə gələnlərə qarışmışdı. Bayram əhval-ruhiyyəsi ilə keçirilən hər toplantı şəhərə yüksək təntənə gətirmişdi. "Şuşa" otelinə yerləşib dincimizi aldıqdan sonra gəzintiyə çıxdıq.

Gövhərağa məscidində namaz qılmaq da varmış qismətimdə. İçimdə elə yüngüllük vardı ki. Hər dəfə o məsciddən verilən görüntülərə baxanda, 29 ildən sonra ilk dəfə 2021-ci il, mayın 12-də mərhum Hacı Şahinin iştirakı ilə bayram namazının qılındığını izləyəndə, ölkə başçısının və xanımının bu məbədi ziyarət etməsini görəndə, bu il şəhərə köçürülən sakinlərlə qılınan bayram namazına baxanda da ürəyimdən "kaş mən də orada namaz qılardım"– istəyi keçmişdi. Şükür olsun bu günə ki, Gövhərağa məscidində səcdədə olmaq mənə nəsib oldu. Əllərimi Rəbbimin dərgahına uzadıb dualar etdim.






Xan qızı Natəvanın bəxtsiz taleyi gözlərim önündə canlanır. Sonra onun 29 il İncəsənət Muzeyinin həyətində qoyulmuş, ermənilər tərəfindən deşik-deşik edilən büstünü xatırlayıram. İndi büst öz yerindədir. Özünün layiq və aid olduğu yerdə! Bu gün Natəvanın Şuşada yenidən qoyulan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü dövlət başçımızın və xalqımızın milli-mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin mayında Şuşa Azərbaycanın Mədəniyyət paytaxtı elan edilib. Növbəti sərəncamı 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə bağlı olub. Sonra isə Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalanıb. Natəvan Şuşanın gözəllik, ləyaqət, xeyirxahlıq rəmzidir. Şuşa həm də Xan qızının şəhəridir.

## İsa bulağı

Gəzintidəyik, İsa bulağında. XVIII əsrdə İsa adlı bir əkinçinin meşədə üzə çıxardığı bulaq dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşir. Bu çeşmənin şəninə nə qədər təriflər yazılsa, mahnılar qoşulsa da yenə azdır. O səfalı məkanda, o şəfalı sudan içmək də mənə nəsib oldu. Dillərə dastan olan İsa bulağı həmişə elə Şuşa qədər məşhur olub. Bir zamanlar Şuşa deyəndə yada İsa bulağı, İsa bulağı deyəndə Şuşa düşərdi. Şuşaya bircə dəfə ayaq basan hər kəs mütləq bu bulağın suyundan şərbət kimi içərdi. Bu məkana istirahətə gələnlər bulağın başında şəkillər çəkdirər, həmin anı əbədiləşdirərdilər. Atamın da şəkli vardı, küncünə "Şuşa. İsa bulağı. 1968-ci il" yazılmışdı.

Deyilənlərə görə XVIII əsrdə kəşf edilən İsa bulağının başında o vaxtdan məclislər qurular, insanlar burada təbiətin gözəlliyindən zövq alarmışlar.

Erməni Vandalları Şuşanı dəyişmək istəsələr, tarixi, dini-mədəni abidələrimizi nə qədər dağıtmağa çalışsalar da, bunu axıradək bacarmayıblar. Onlar xarabaya döndərdikləri, suyu qurudulan bu bulağı da tanınmaz hala salmışdılar.

Yenidən həyat verilən "İsa bulağı" istirahət mərkəzində gəzirik. Vətən müharibəsindən sonra ölkə rəhbərinin tapşırığı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi bulağı bərpa edib. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada "İsa bulağı" istirahət kompleksinin açılışında iştirak edib.

Bulağın başı yenidən qələbəlikdir. Yalnız Şuşa sakinləri deyil, Laçından, Füzulidən də ailələr, hətta körpə uşaqla istirahətə gələnlər var. Ürəyimdə "ay bulaq, neçə igid səndən keçdi, neçəsi su içdi... Neçəsi də həyatdan və bu sudan doymadan getdi"– deyirəm.

## Böyük şairə salam olsun

Yolumuz Molla Pənah Vaqifin məqbərəsinədir. Şuşa səfəri ilə bağlı baş redaktorumuz Əflatun Amaşovla görüşəndə onun Səməd Vurğunun "Vaqif" dramından xatırlatdığı epizod yadıma düşür. Dərhal da Vaqiflə oğlu Əlibəyin edam səhnəsini xatırlayıram. Vaqifin son anda cəllada dediyi "Məni oğlumdan öncə edam et, onun ölümünü görməyim"– xahişi beynimdə partlayır.

Erməni cəlladlarının göz qırpmadan ata-analarının qarşısında övladlarının başına açdığı oyunlar, Xocalı faciəsi gözüm önündə canlanır. O caniləri hansı adla çağırasan? Bu vəhşiliyin adı yoxdur. Məqbərəni ziyarət edib Cıdır düzünə qalxırıq.

## Üzü Cıdır düzünə

Bu da Cıdır düzü. 28 il yanğı və nisgillə anılan məkan. Ötənlərin bayram günlərində şuşalıların toplaşdığı yer. Yarğanın düz başında dayanmışıq. Aşağıdan qulağıma şəhəri azad edən əsgərlərimizin səsi gəlir. Daşları sığallayram – kiminsə qanı tökülmüş olar. Torpağa əl basıram – istilik duyuram. Əmim nəvəsi, ermənilərin "qarabala" adlandırdıqları gizir Kamran Ağabalayev XTQ-in tərkibində Xankəndidən Şuşaya qalxanlardan biridir. Müharibədən sonra ondan "3 tərəfdən erməni əhatəsində olan Şuşanı necə fəth etdiniz? Yeganə açıq qalan yarğandan Cıdır düzünə necə qalxdınız?" – sualına "qalxdıq"– demişdi. Ondan müsahibə almaq istədim, ikicə cümlə ilə cavab verdi: "Biz tarixi yazdıq! Siz şəhidlərdən yazın!"

Bütün dünyanın heyrət etdiyi o əlbəyaxa döyüşdə can verənlərin ruhları şad olsun. Qazilərimizə can sağlığı arzulayıram.

## Qadın konfransı

Şuşaya Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusuna həsr olunmuş beynəlxalq konfransda iştirak üçün gəldik. Milli Məclisin deputatları, yerli və xarici ölkələrdən gələnlər, Qarabağa köçən sakinlər də daxil olmaqla 120-dən artıq nümayəndə iştirakçı idi.

**Konfransı giriş nitqi ilə komitənin sədri Bahar Muradova** açaraq məclisin məhz Şuşada keçirilməsinin mənəvi tərəflərindən söz açdı. Azərbaycan qadınlarının cəmiyyətdə rolundan qürurla danışan komitə sədri beynəlxalq tədbirlərin Şuşada keçirilməsini Azərbaycanın gücü, onun işğalda olan torpaqların azad edilməsi üçün apardığı savaşda haqlı olduğunun dünyada qəbul edilməsi kimi dəyərləndirdi. Dedi ki, dinimiz və mədəniyyətimiz İslamın bir parçası oldugu üçün onu qoruyacağıq.



Komitə sədri bildirdi ki, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi kifayət qədər önəmli hadisə oldu: "Məlum olduğu kimi, ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İndi Yer kürəsinin hər hansı regionunda baş verən təbii fəlakət təkcə həmin ərazinin deyil, bütün dünyanın problemi sayılır. Bəşəriyyətin yaranması, inkişaf etməsi, eləcə də yenilənməsində əvəzsiz rol oynayan qadınlar bu gün belə qlobal problemləri aradan qaldırmağın yollarını kişilərlə birgə axtarırlar. COP29-un Təşkilat Komitəsində qadınların üstün iştirakı bunun əyani sübutudur".

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov** bildirdi ki, tarixi, dini və mədəniyyət abidələrinin bərpası Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərində ən həssas istiqamətlərdəndir: "Təsadüfi deyil ki, bu nəcib və ali missiyanı başlayan Azərbaycan qadınıdır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva torpaqlarımız işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondunun Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını elan etdi. Bu gün artıq Fond tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işləri uğurla həyata keçirilir". O, vurğuladı ki, 30 illik işğala son qoyulması həm də bu müddət ərzində ermənilər tərəfindən dağıdılmış, yerlə-yeksan edilmiş, təhqir olunmuş 67 məscidin azad edilməsi idi.



Ramin Məmmədov uşaqlığının bir hissəsinin burada keçdiyini dedi, Azərbaycan qadınının Şuşaya, ümumiyyətlə, Qarabağa qayıdışını alqışladı: "Üzərində dayandığımız bu torpaqları azad edən oğulları da Azərbaycan qadınları dünyaya gətirib. Qadınlarımız xoşbəxtdir. Çünki onun qaygısını çəkən, hər an yanında olan, arxalandığı möhtəşəm dövləti var."

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova** mövzunun aktuallıgına diqqət çəkdi. "Məclisin bu məkanda keçirilməsi qəlbimizi fərəhləndir"– dedi.



Vurğuladı ki, sərt stereotiplər belə fikir yaradır ki, İslam dünyasında qadın inkişaf etmir. Əslində, İslamdan öncə qız uşaqlarının diri-diri basdırılması, İslamdan sonra isə qadına münasibətin dəyişməsi onu göstərir ki, dinimiz qadına böyük dəyər verir. İslamda kişi kimi qadının da böyük hüququ var: "Düşünürəm ki, xüsusilə qadın və uşaq hüquqları ilə bağlı ciddi maarifləndirməyə ehtiyac var. İnanıram ki, görülən tədbirlərin nəticəsində müsəlman qadınları dünyada terrorçu kimi deyil, vəkil, siyasətçi, həkim, müəllim, savadlı insan, ailənin özülü kimi tanınacaq".



Mədəniyyət nazirinin müavini Səadət Yusifova qadınların əzəldən bəri dialoq tərəfdarı olduqlarını, tarixin yeni dönəmində Azərbaycanın quruculuğuna, "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfələr verdiklərini, Böyük qayıdışın aparıcı qüvvələrindən olduqlarını dedi. O, Azərbaycan qadınının həm ailədəki, həm də cəmiyyətdəki sarsılmaz mövqeyinin dövlətimizin uğurlu sosial siyasətinin nəticəsi olduğunu vurğulayıb. Tarix boyu Azərbaycan qadınının necə mətin, mübariz olduğunu, müasir dövrdə də nəinki ölkəmizdə, digər dövlətlərdə da çalışdıqlarını, elmləri və əməlləri ilə nələrə qadir olduqlarını sübut etdiklərini diqqətə çatdırdı.

**Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahid Bağçı** Türkiyə və Azərbaycanın bir çox Qərb ölkələrindən öncə qadınlara seçmə və seçilmə haqqı verdiyini dedi. Səfir Türkiyə və Azərbaycanda qadınların ictimai-siyasi həyatda fəaliyyətinin və rolunun artırılması ilə bağlı görülən işlər haqqında danışdı: "Türkiyənin 2024-cü ildəki fəaliyyət planında qadına şiddətin qarşısının alınması ilə bağlı ciddi tədbirlər nəzərdə tutulub. Azərbaycanda da qadın və uşaq hüquqları ilə bağlı önəmli addımların atıldığını, vacib qanunların qəbul edildiyini, müxtəlif tədbirlərin həyata keçirildiyini görürük. Bu istiqamətdə Türkiyə dövləti olaraq rəsmi Bakı ilə təcrübələri paylaşmağa həmişə hazırıq. Hətta ölkələrimiz arasında bu istiqamətdə fəaliyyət planı mövcuddur və bunu birlikdə həyata keçiririk".



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini moderator Gündüz İsmayılov** panel iclasda bildirdi ki, islam coğrafiyasında qadınların təhsilalma hüququ ümumi dünya göstəricisindən aşağıdır. Onun sözlərinə görə, İslam dünyasında müsəlman kişilərin yalnız 10 faizi, qadınların isə 6 faizi təhsilini davam etdirir.

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi Nərgiz Qaracayeva** isə qeyd etdi ki, işğaldan azad edilmiş Ağalı kəndində hazırda qadınların sayı kişilərdən çoxdur. O, azad edilən rayonlarda aparılan bərpa – quruculuq işlərindən söz açdı. Azərbaycan qadınının təkcə torpaqların azad edilməsindən sonra quruculuq işlərində iştirak etmədiyini, həm də azadlığın istirakçısı olduğunu vurğuladı. Tibb bacısı kimi cəbhə bölgələrində əsgərlərə dəstək olan qadınlardan söz açdı. İşğaldan azad edilən rayonlarda qadınların məşğulluguna həsr edilmiş videoçarxı təqdim etdi.

**Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova** Şuşanın tarixinin ilk çiçəklənmə dövrünə nəzər saldı, burada tarixi şəxsiyyətlərin yetişdiyini, qızların oğlanlarla bir yerdə oxuduqlarını vurğuladı. Şuşanın tarixi şəxsiyyətlərindən – Tehrana gəlin köçən Agabəyim ağa İbrahimdən, iki–Gövhərağa məscidi tikdirən Gövhər Ağadan, Xan qızı Natəvandan, Fatma xanım Kəminədən, xeyriyyəçi Həmidə xanım Cavanşirdən, Türkiyədə vəkil olan Sürəyya Ağaoğlundan söz açdı.

**Qafqaz Müsəlmanları İdarəsinin İctimaiyyətlə əlaqələr və ailə problemləri üzrə sədr müavini Qəmər Cavadlı** Azərbaycanın üzləşdiyi mina probleminə toxundu. O, ermənilərin Azərbaycanın əzəli-əbədi torpaqlarında törətdikləri bu qeyri-insani addımın təkcə İslamda deyil, bütün dinlərdə tənqid edilən əməl olduğunu vurğuladı. Quran ayələrindən, Allahın insana yaşamaq üçün verdiyi 5 istinaddan söz açıb – su, bitki, torpaq, dilsiz heyvanlar və havanı qorumalı olduğumuzun vacib əməl olduğunu diqqətə çatdırdı.

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyətini qeyd etdi. O, Azərbaycan qadınına münasibətin digər İslam ölkələrindəkindən fərqli olduğunu vurğuladı. Bildirdi ki, bəzi ərəb ölkələrində qadınla kişinin eyni yerdə təhsil alması, qadının avtomobil idarə etməsi qadağandır: "Konfransın adından da göründüyü kimi biz həm ailədə və cəmiyyətdə ənənələri qorumalıyıq, həm də elə çağırışları etməliyik ki, insanlar dinin əslində qadınlara təhsil, seçkidə iştirak kimi hüquqlar verdiyini anlasınlar. İslam qadınların da, kişilərin də təhsil almasını xüsusi şəkildə dəstəkləyir. Çalışmalıyıq ki, belə anlaşılmazlıqlar aradan qalxsın".

**"Əhməd Ağaoğlu" Milli Araşdırmalar İctimai Birliyinin sədri Nigar Axundova** isə Türk dünyasının ilk qadın vəkili Sürəyya Ağaoğlunun nümunəvi həyatı və ictimai-siyasi fəaliyyəti haqqında konfrans iştirakçılarına məlumat verdi.

Konfrans panel müzakirələrlə davam etdi.

Bakıya dönərkən Xankəndidən ötüb keçdik. Baş meydanda Dövlət bayrağımızın dalğalandığını görmək Şuşa səfərimizin öyünclü və unudulmaz təəssüratını ikiqat zənginləşdirdi. Bəli, Şuşa kimi Xankəndi də artıq bizimdir. Qarabağ Azərbaycandır!

*Zərifə BƏŞİRQIZI*
*XQ*

**Bakı–Şuşa–Bakı**

# Zəfər şəhərində möhtəşəm sənət təntənəsi



**Dünən mədəniyyət paytaxtımız Şuşada Qarabağ Zəfərimizdən sonra bərpa edilən və dördüncü dəfə keçirilən Vaqif Poeziya Günlərinin son akkordları səsləndi.**

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkil etdiyi söz-sənət bayramı çərçivəsində Otel-Konqres Mərkəzində gerçəkləşən "Məhəmməd Füzuli. Zamanın fövqündə" mövzusunda konfrans anadilli klassik poeziyamızın Füzuli ilə başlayıb Vaqiflə mükəmmələşən gözəllik və kamillik fəlsəfəsinə Şuşa türklük zirvəsindən baxış oldu. Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi İlqar Fəhminin moderatorluğu ilə keçirilən sənət məclisi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyinə Vaqif Poeziya Günlərinin ehtiramı və töhfəsi kimi sərgiləndi.

Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva konfransın "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" Prezident sərəncamından irəli gələn vəzifələrə uyğun təşkil edildiyini söylədi: "Beş əsrdən çoxdur ki, Məhəmməd Füzulinin poetik nümunələri, hər biri bir kəşf səviyyəsində olan elmi əsərlərini Azərbaycan və dünya oxucuları sevərək oxuyurlar. Füzulinin yazıb-yaratdığı dövrdən əsrlər ötsə də, əsərlərinin cazibəsi ildən-ilə nəinki zəifləmir, əksinə yeni-yeni nəsillər, dəyişən zamanlar içərisində insanlar öz zəka və idraklarının gücü ilə dahi şairin yaradıcılığını fərqli müstəvilərdə dərk edərək dünyagörüşlərinə uyğun halda yenidən mənalandırırlar".



Akademik diqqətə çatdırdı ki, böyük şairin 530 illiyi münasibətilə AMEA-da silsilə tədbirlərlə yanaşı, şairin elmi irsinin də öyrənilməsi istiqamətində mühüm işlər görülür. Şərqşünas alim söz və məna sərrafı Füzulinin Ümumşərq poeziyasını zənginləşdirmiş bənzərsiz ədəbi irsindən bəhs edərək son illər rəhbərlik etdiyi institutda bu istiqamətdə aparılan elmi axtarışlardan da danışdı.

AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli qeyd etdi ki, ölkəmizin taleyi üçün son dərəcə ağır olan dövrdə – 1994-cü ildə ümummilli lider Heydər Əliyev dahi şairin 500 illik yubileyinin keçirilməsini təxirə salmamış, əksinə, Füzulinin yubileyinin həm Azərbaycanda, həm də yaxın-uzaq ölkələrdə silsilə təntənələrə çevrilməsini, yüksək səviyyədə qeyd olunmasını təmin etmişdir. Bu gün də yubileyi layiqincə keçirməklə Azərbaycanı müstəqil bir dövlət, təbii sərvətlərlə zəngin ölkə olmaqla yanaşı, şanlı tarixə, parlaq mədəniyyətə sahib məmləkət kimi tanıtmalıyıq.

Azərbaycan Yazıçılar Birliyinin üzvi, şair Fərid Hüseyn ölməz Füzulinin həmişəyaşar söz dünyasından söhbət açdı.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov dedi ki, tarixi Zəfərdən sonra biz artıq 4-cü dəfədir mədəniyyət paytaxtımız Şuşada Vaqif Poeziya Günlərinin keçirilməsi münasibətilə bir araya gəlirik: "Xoş təsadüfdür ki, bu il Füzulinin 530 illik yubileyi ili də ölkəmizin dünya miqyaslı aksiya olan COP29-a evsahibliyi etdiyi bir dövrə təsadüf edir. Gərək biz bu yubiley ilində də Füzuli ilə bağlı dolğun məlumatları xarici ölkələrin yazar və şairlərinə çatdırmaqla yanaşı, həm də onlara Qarabağ Zəfərimiz, 30 illik işğal dövrünün həqiqətləri barədə bilgilər verək".

Mədəniyyət Nazirliynin Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı keçirdiyi tədbirlərdən danışan nazir müavini qeyd etdi ki, ölkəmizin iştirak etdiyi beynəlxalq kitab sərgilərində – Dohada, Pekində və digər şəhərlərdə dahi şairin irsi təbliğ olunub, ona aid Azərbaycan stendində xüsusi guşələr yaradılıb. Bu ilin oktyabrına planlaşdırılan 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi də Məhəmməd Füzulinin yubileyinə həsr ediləcək.

Sonda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri Əməkdar artist Anar Mikayılov və Roza Zeynalova Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında duet təqdim etdilər.

Konfransdan sonra Mədəniyyət Nazirliyinin dəstəyi ilə çəkilmiş "Sözün repressiyası" sənədli filminin nümayişi oldu. "Bulatfilm Production" şirkətinin istehsalı olan ekran əsərinin rejissoru Rafiq Həşimov, ssenari müəllifi Səlim Babullaoğlu, operatoru Rüfət Süleymanovdur. Filmdə repressiya qurbanlarına çevrilmiş 31 yazıçı, şair və digər ədiblərimiz xatırlanır, bəzilərinin faciəvi tarixçəsindən danışılır. Eyni zamanda, Stalin repressiyalarının retrospektiv planda faciəvi və tarixi fəlsəfəsi ekran texnologiyası ilə araşdırılır.

Filmdə Xalq yazıçısı Anar, tarixçi-cavidşünas Həmid Cəfərov, akademik Rafael Hüseynov, Siyasi Repressiya Qurbanları Muzeyinin rəisi Mirabbas Məmmədov, filoloq alimlərdən Firudin Qurbansoy və Bədirxan Əhmədovun Stalin repressiyalarının və kommunist siyasətinin mahiyyəti ilə bağlı fikirləri yer alıb.

Poeziya bayramına Xurşidbanu Natəvanın evinin qarşısında təşkil edilən "Vaqiflə səyahət" adlı bədii-musiqili tamaşa ilə yekun vuruldu. İlk dəfə təqdim olunan kompozisiya azərbaycanlı səyyah, coğrafiyaçı, tarixçi, etnoqraf, filosof və şair Hacı Zeynalabdin Şirvaniyə həsr olunub. Görkəmli alimin həyat yolu, ömür kredosu bir daha sənət adamalarının gözləri qarşısında vəqərləndi. Tamaşanın ssenari müəllifi AYB-nin katibi İlqar Fəhmi, quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur.

Əsərdə, eyni zamanda, Məhəmməd Füzuli, Nəsimi, Məhsətidən tutmuş Azərbaycan şeirinin, musiqi mədəniyyətinin inkişafında xidmətləri olan söz xiridarlarının ömür yoluna, yaradıcılığına toxunulur, onların keçdiyi yol bir örnək kimi təqdim edilir.

Tamaşada Şuşa Dövlət Musiqili Dram, Azərbaycan Dövlət Pantomima və Azərbaycan Dövlət "Yuğ" teatrlarının aktyorları ilə yanaşı, Xalq artisti Gülyanaq Məmmədova, Əməkdar artist Nigar Şabanova, xanəndələr Hüseyn Məlikov, Nüşabə Kərimli, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və Bakı Xoreoqrafiya Akademiyasının tələbələri iştirak edirdilər.



Böyük peşəkarlıqla hazırlanmış səhnə təqdimatı görkəmli söz xiridarlarımızı sənət bayramı iştirakçılarına daha yaxından tanıtdı.

Bununla da, mədəniyyət paytaxtımız Şuşa şəhərində keçirilən növbəti Vaqif Poeziya Günləri tarixə qovuşdu.

***Əli NƏCƏFXANLI***
***XQ***

## Şuşa sevgisi



**Süzülür dan yerindən tarixlərin işığı –**
**Dahilər şəhərinin işıqdı yaraşığı!**
**Şəninə dastan yazır,**
**söz qoşur haqq aşığı,**
**Əcdaddan paydı, deyir,**
**qoca Şuşa sevgisi!**

**Azərbaycan əsgəri...**
**borc ödəyib canıyla,**
**Köksündə cüt gəzdirib bayrağı vicdanıyla!**
**İslanıb hər qarışı şəhidlərin qanıyla,**
**Dönüb yalçın qayaya,**
**tunca Şuşa sevgisi!**

**Çox da qıvrılır yolu;**
**yol piyada, can atlı!**
**Ün yetməz zirvəsinə çox nəsillər can atdı...**
**Adında qoşa heca – sanki qoşa qanaddı**
**Qopmuş körpə dilindən**
**qönçə Şuşa sevgisi!**

**Məlhəmdi çiçəkləri, bulaqlar loğmanıdı,**
**Heyrət çökən dərələr ucalıq heyranıdı!**
**İndi onu cahana prezidentlər tanıdır;**
**Tarix görməyib əsla**
**bunca Şuşa sevgisi!**

**Qalxır hünərli şəhər, olur qızıl dirəkli**
**Daş deyil hörülən daş, məhəbbətdi, ürəkdi!**
**Çağlayan sevgilərin ilham mənbəyi təkdi –**
**Ali Baş Komandanın uca Şuşa sevgisi!**

**Rəşad MƏCİD,**
**şair-publisist**

## ... Adsız qəhrəman



**Mən sizə bu savaşda ölməyi əmr edirəm,**
**Siz ölümə gedəndə ölüm sizdən qaçacaq.**
**Bu şəhərin yolunu üzümüzə açsanız**
**Allah da dərgahında sizə qucaq açacaq.**

**Mən sizə bu savaşda ölməyi əmr edirəm,**
**Ancaq ölüm gəlmədən düşməni öldürməyi.**
**Başqasının yurduna göz dikəni ağladıb**
**30 il yas tutanın üzünü güldürməyi!**

**Mən sizə bu savaşda ölməyi əmr edirəm,**
**Ölümün qucağına dirilik sinməlidir.**
**Əmrim ölüm olsa da ancaq bu son savaşdan**
**Əsgərim qələbəylə, sapsağlam dönməldir!**

**Qarşıda sıldırımlar, dik qayalar baş-başa,**
**Gərək qartal olasan, gərək qanadın ola.**
**Ya da bu qayalardan səni alıb qaldıran**
**Bir uçuş ehtirasın, dəli inadın ola.**

**Daşlar soyuq, sürüşkən, altda dibsiz uçurum,**
**Qayaların başında düşmən əsgəri min-min.**
**Yağış ol, dumana dön, düşmən duyuq düşməsin**
**Gözündəki şimşəyi görənə kimi sənin.**

**Ölüm-dirim anında haqdan gələn bir nida**
**Kəlmeyi-şəhadəttək ürəklərdə bəslənir.**
**Bu əmrin ilk vətəni Çanaqqala olmuşdu,**
**Yüz ili adlayaraq Şuşada da səslənir.**

**Əsgərin silahı yox, əmrin özü silahdır,**
**Bu əmr özü qanaddır, qaldırır uçurumdan.**
**Düşmən gözünü açıb görür bir körpə ruhu**
**30 yaşa dolaraq gəlibdir Xocalıdan.**

*

**Adına qurban olum, ey adsız qəhrəmanım!**
**Ruhundakı tilsimə heyran olub durmuşam.**
**Siz Vətən fədaisi! Qəlbimdə hərənizə**
**Neçə ləqəb düşünüb, neçə ad uydurmuşam.**

**Yürü, yürü, Mete xan, burda da sərkədəsən,**
**Arxanca qanadlanıb Qazanla, Beyrək gəlir.**
**Gürşad saraylar yıxır qırx igidi başında,**
**Özgürlük deyə-deyə Xürrəmi Babək gəlir!**
**Gəlir Oğuz, Bayandur, Alparslan, Qızıl Arslan,**
**Çağrı bəyin yoluna düzülüb neçə oğul,**
**Siz bu günün Çingizi, siz bu günün Timuru,**
**Sizlərin simasında dirilibdir Ərtoğrul!**

**Sizin adınız namus, qeyrət, şəhid, intiqam,**
**Milyon-milyon adlı var, tüpürürlər adına.**
**Ata-ana ad verib böyütdülər sevgiylə,**
**Sonra da alışdılar pis övladın oduna.**

**Get, adsız qəhrəmanım, Qacar ala bilmədi,**
**Bu qalanı seyr etdi dediyi o şüşədən.**

**Qala - təxəllüsündür, Qaya - sənin ayaman**
**Öz əsil adınısa alacaqsan Şuşadan...**

**Ya da ki, Dədəm Qorqud dilləndirib qopuzu**
**Türkün ölməz ruhundan verər sözə yeni can.**
**Deyər ki, ayırmıram sizi bir-birinizdən,**
**Şuşa fatehlərinin bir adı var: Qəhrəman!**

**Sabir RÜSTƏMXANLI,**
**Xalq şairi**

# Paytaxt muzeylərinin turizmə töhfəsi

**Hər il dünyanın müxtəlif ölkələrindən paytaxt Bakıya minlərlə turist gəlir. Əksər hallarda turistlərlə şəhərimizin gəzməli-görməli yerlərində qarşılaşırıq ki, bu da təbiidir. Bu il şəhərin mərkəzi küçə və meydanlarında turist qələbəliyi daha çox nəzərə çarpır. Turistlər paytaxtın tarix və mədəniyyət abidələrinə üz tutur, müxtəlif təyinatlı muzeyləri ziyarət edirlər.**

Rəsmi məlumatlardan da görünür ki, şəhərimizin qonaqlarının maraq dairəsində, ilk növbədə, Bakı muzeyləri və tarixi abidələr dayanır. Muzeylərimiz həm eksponat və tarixi məmulatlarla zənginlik baxımından, həm də ziyarətçilər üçün yaradılan rahat şəraitə görə maraqları daha artırır. Bu gün muzeylər istənilən xarici ziyarətçiyə Azərbaycanın tarixi, zəngin mədəniyyəti və tarixi şəxsiyyətləri barədə ən dolğun məlumatları ötürmək imkanına malikdirlər. Hazırkı mənzərələrdən görünür ki, ötən ilin eyni dövrü ilə müqayisədə muzeylərdə ziyarətçi fəallığı var. Bu il yay aylarında ölkəmizə gələn turistlərin sayındakı artım muzeylərin ziyarətçi sayına da təsirsiz ötüşməyib.

Yerli və xarici turistlərin maraq dairəsində olan paytaxt muzeylərini bu il nə qədər turist ziyarət edib, ümumiyyətlə,



ötən illə müqayisədə ekskursiyaların sayında artım varmı?

Bu suallara cavab tapmaq üçün paytaxtın bir neçə muzeyinə baş çəkdik, builki vəziyyət barədə dəqiq bilgilər aldıq.

Əvvəlcə **Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova** ilə həmsöhbət olduq. Direktor bildirdi ki, ilin birinci yarsının statistikasına əsasən, bu il muzeyə ziyarətçi axını çox olub. Onun sözlərinə görə, hazırkı vaxtadək təkcə Musiqi Mədəniyyəti Dövlət Muzeyinin özünə 5668 nəfər ziyarətçi gəlib. Bunlardan 350 nəfəri xarici zitarətçi olub, ümumilikdə, muzeydə 523 ekskursiya aparılıb.

– Bizim muzeyin tabeliyində üç ev muzeyi fəaliyyət göstərir. Qara Qarayevin ev-muzeyinə qeyd olunan vaxt ərzində 594 nəfər ziyarətçi gəlib, onlardan 44 nəfəri xarici ziyarətçi olub, 87 ekskursiya aparılıb. Niyazinin mənzil-muzeyini 728 nəfər ziyarət edib, onlardan 19 nəfər xarici ziyarətçi olub, 66 ekskursiya aparılıb. Vaqif Mustafazadənin ev-muzeyinə isə 603 nəfər ziyarətçi gəlib, onlardan 89 nəfəri xarici ziyarətçi olub, 28 ekskursiya aparılıb. Bundan başqa, muzeydə təşkil etdiyimiz xalq çalğı alətləri daimi sərgisinə 495 ziyarətçi gəlib, 20 ekskursiya aparılıb. Bütün bunları nəzərə alıb qeyd edə bilərik ki, bu ilin birinci yarısında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə və onun filiallarına, ümumilikdə, cəmi 8088 nəfər ziyarətçi gəlib ki, onlardan 502 nəfəri xarici qonaqlar olub

Üz tutduğumuz növbəti ünvan **- İstiqlal Muzeyi də yerli və xarici ziyarətçilərin maraq dairəsindədir. Muzeyin direktoru Sədi Mirseyibli** bildirdi ki, bu ilin birinci yarsı ötən ilin eyni dövrü ilə müqayisədə rəhbəri olduğu muzeyə ziyarətçi axınında artım müşahidə edilir:

– Orta və ali məktəblərin fəaliyyəti dövründə muzeyimizə kütləvi marağın artdığı müşahidə edilib. Yəni bu il şagir və tələblərin muzeyi ziyarətlərində artım olub. Bilirik ki, Azərbaycan artıq turizm ölkəsinə çevrilir. Yay aylarında muzeyi ziyarət edən xarici qonaqların sayında da artım nəzərə çarpır. Muzeydə yerli və xarici qonaqlara Azərbaycan, rus və ingilis dilində informasiyalar çatdırılır. Muzeyə daxil olan heç bir ziyarətçi buradan məlumatsız gedə bilməz. Son altı ay ərzində muzeydə 192 ekskursiya aparılıb. Bu müddət ərzində, təxminən, 5 min civarında yerli ziyarətçi – məktəbli, şəhid ailələri, hərbi qulluqçu və 750-dək xarici turist muzeyi ziyarət edib. Ümumilikdə, bu il İstiqlal Muzeyinə gələn ziyarətçilərin sayında artım olduğunu deyə bilərik.

**Milli Azərbaycan Tarixi Muzeyi də ziyarətçi fəallığına görə ilk sıralardadır. Muzeyin beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zümrüd İsmayılova təmsil etdiyi qurumun ekspozisiyalarına ziyarətçi marağının artdığını və ötən illə müqayisədə bu il daha dinamikliyin olduğunu söylədi.**

– Hazırkı vaxtadək 9730 ziyarətçi muzeyimizin qonağı olub. Ziyarətçilər arasında xarici ölkə vətəndaşları da var. İstər turistlərin, istərsə də ekspedisiyaların sayında əvvəlki illərlə müqayisədə artımın olduğunu söyləyə bilərik. Aprel ayında muzeyimizin yeni ekspozisiyasının təqdimatı keçirildi. Yeni ekspozisiya birinci və ikinci mərtəbələri əhatə etməklə, ümumilikdə, 26 zaldan ibarətdir. Birinci mərtəbədə tarixin ən qədim çağlarından XIX əsrin əvvəllərinə qədər olan, ikinci mərtəbədə isə XIX əsrin ikinci yarısından indiyədək olan dövrlər nümayiş edilir. Muzeyimizə olan marağın artmasına və turist sayına təsir edən amillərdən ən başlıcası yeni ekspozisiyanın fəaliyyətidir.

Paytaxtda yerləşən digər mədəniyyət xəzinələrimizdə də ziyarətçi marağının mövcud vəziyyətini öyrəndik. Qənaətimiz bu oldu ki, irili-xırdalı digər muzeylərdə də oxşar fəallıq mövcuddur.

***Ceyhun ALIŞLI***

Paris Olimpiadasına 5 gün qalıb

# Olimpiya çempionluğu idmançılarımız üçün əlyetəndir

**Sövet dövründə ittifaq idmanında layiqli mövqe tutan Azərbaycan idmançıları dünya çempionatlarında və olimpiadalarda da uğurla çıxış etmişlər. Müstəqillik illəri isə ölkə idmanının tarixində yeni mərhələ olmuşdur. Soydaşlarımız üçün yaradılmış hərtərəfli şərait onların beynəlxalq yarışlarda qələbələrini daha əlçatan edib. Paris Olimpiadasından gözləntilərimiz isə daha yüksəkdir.**

**Zemfira Meftaxetdinova, Sidney Olimpiadasının qalibi, Afina Oyunlarının bürünc medalçısı:**



5 gündən sonra həyatımızın ən unudulmaz anlarına şahidlik edəcəyik. Dünyanın güclü ölkələrinin iştirak edəcəyi dördilliyin ən mötəbər idman yarışında Azərbaycan Olimpiya yığmasının çıxışını həyəcan və fəxrlə izləyəcəyik. Olimpiya mübarizəsinin nə olduğunu biz yaxşı bilirik. Azərbaycan idman dövləti olduğu üçün təmsilçilərimiz dünyanın da diqqət mərkəzində olacaq.

Olimpiadaya yola düşəcək idmançılarımızı bu gün cəmiyyətimizdə hamı tanıyır. Çünki onlar bizə qələbə sevincləri yaşadıblar, bu insanlara ölkəmizdə böyük hörmət var. İdmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət nəticəsində atletlərimiz cəmiyyətdə layiqli yer tutublar. Bu siyasət nəticəsində qələbələrimizin sayı ildən-ilə artır.

Əgər müstəqilliyimizin ilk olimpiadalarında məhdud sayda idman növləri üzrə təmsil olunurduqsa, indi daha geniş proqram üzrə iştirak edirik. Bu da onu göstərir ki, Azərbaycanda idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün mükəmməl idman infrastrukturu qurulub. Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı və digər arenalar, həm də hər kəsi valeh edən gözəl memarlıq əsərləridir.

Olimpiyaçılarımız arasında çoxlu region idmançılarının olması, bölgələrimizdə də idmanın bütün növləri ilə məşğul olmaq üçün yaradılan lazımi şəraitdən xəbər verir. Bu cür gözəl idman infrastrukturu idmanın kütləviliyinin təmin olunmasında mühüm rol oynayır. İdmanla məşğul olan uşaqlar, yeniyetmələr fiziki sağlam olmaqla yanaşı, mənəvi cəhətdən də kamilləşir, yüksək keyfiyyətlərə malik olurlar.

Biz müstəqilliyimiz dövründə yetişən gənclərimizin hünərinə Vətən müharibəsində bir daha şahid olduq. Məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında gənclərimiz böyük Zəfər qazandılar. Bu dəfə gənclərimizi Parisdə hünər meydanı gözləyir. Ürəyimiz sizinlə döyünür, əziz olimpiyaçılarımız!

## Yeni Olimpiya çempionlarımızı gözləyirik

**Lyudmila Şubina, Monreal Olimpiadasının qalibi:**

Müstəqil Azərbaycanın komandası bu mötəbər yarışlarda güclü heyətlə çıxış edir. Hər dəfə komandamız Olimpiadaya yola düşəndə Olimpiya Oyunlarında çıxış etdiyimiz dövrü xatırlayıram. Gənc nəsil xoşbəxtdir ki, onlara belə böyük bir yarışda doğma ölkəmizin bayrağı altında çıxış etmək nəsib olub. O zaman SSRİ yığmasına düşmək çox çətin idi. Amma indi əmək sərf edən, nailiyyətləri olan hər bir idmançının yığmaya düşmək imkanları daha böyükdür.



Azərbaycan hazırda ən güclü idman ölkələrindən biri kimi tanınır. Sevindirici haldır ki, budəfəki oyunlarda ilk dəfə komanda idman növündə – basketbolda təmsil olunuruq. Paris Olimpiadasında millimizin çıxışını səbirsizliklə gözləyirəm. Əminəm ki, nailiyyətlərimiz çox olacaq.

"Qarabağ" həndbol klubunun prezidenti kimi idmanın inkişafına töhfələrimi verməyə çalşıram. Komandamız ölkə çempionudur. Yığmamız Avropa Kubokunda oynayacaq. İlk oyunlar oktyabrın 5-6-da, cavab qarşılaşmaları 12-13-də keçiriləcək. Lüksemburqun "Red Boys Differdanj" klubu rəqibimiz olacaq. Arzum budur ki, basketbolla yanaşı, hədbolda və digər komanda idman növlərində də Avropa və dünyada böyük nailiyyətlərimiz olsun. Nəhayət, Olimpiya Oyunlarında da gücümüzü göstərək.

Ölkəmizdə idmançılara diqqət və qayğı çox böyükdür. Son illər idmançılarımızın qazandıqları böyük qələbələr də bunu sübut edir. Paris Olimpiadasında yeni Olimpiya çempionlarımızı gözləyirik!

## Tarixi Zəfəri Parisdə də nümayiş etdirmək əzmindədirlər

**Fərid Mansurov, Afina Olimpiadasının qalibi:**



Mənə tez-tez sual verirlər ki, güləşdə qızıl medal gözləyirikmi? Son illər bütün yaş kateqoriyalarında güləş üzrə qazanılan nəticələrə nəzər salsaq, böyük nailiyyətlərin əldə edildiyini görərik. Bu il sərbəst güləş üzrə U-17, U-20 komandalarımız Avropa çempionu olub. Yunan-Roma güləşi üzrə yığmamız U-17-də 3-cü (1921–1922–1924) dəfə Avropanın ən güclüsü adını qazanıb. 15 yaşadək güləşçilərimiz hər 2 növdə qitə çempionatında qalib olublar. U-23 Avropa çempionatında həm sərbəst, həm də klassiklərimiz ilk dəfə çempion adına layiq görülüblər.

Ötən il yunan-Roma güləşi üzrə millimiz (kişilər) komandalar arasında ilk dəfə dünya çempionu olub. Nailiyyətlərimiz o qədərdir ki, sadalamaqla bitmir. Ötən Olimpiya Oyunlarında qızıl medalla yanaşı, saysız-hesabsız digər mükafatlar da qazanmışıq. Əlbəttə, bu oyunlardan qızıl medal da gözləyirik. Son olimpiadada pandemiyaya görə, idmançılar o qədər də yaxşı hazırlaşa bilməmişdilər.

Düzdür, Olimpiya Oyunlarında rəqabət çox yüksək olur. Çünki bu yarışlara seçilmiş idmançılar gedir. Amma yığmamız da ən güclülərdən biri hesab olunur. Komandamızda dünya reytinqinin öncülləri olan idmançılar yer alıb.

Millimizin komanda ruhu çox yüksəkdir. Azərbaycan ilk dəfədir ki, Olimpiya Oyunlarına ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlət kimi gedir. Olimpiya Oyunlarında qalib ölkəni təmsil edəcəyik. Bu da idmançılarımıza əlavə stimul verir. Belə bir mötəbər yarışda bayrağımızı yüksəltmək, Dövlət Himnimizi səsləndirmək üçün komandamızın hər bir üzvü maksimum gücü ilə mübarizə aparacaq.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Avropa çempionatının iştirakçıları ilə görüşündə bir daha tarixi Zəfərimizdə gənclərin vətənpərvərlik hissinin, torpaq sevgisinin əsas olduğunu vurguladı: "Bizim, əlbəttə ki, güclü ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir".

Döyüş meydanında əldə etdiyimiz tarixi Zəfəri idmançılarımız Olimpiya Oyunlarında da da qazanmaq əzmindədirlər. Əminik ki, komandamız Parisdə yenilməz güc nümayiş etdirəcək!

***Leyla QURBANOVA***
***XQ***

# Bayden marafonu tərk edəcək

## Tramp isə mübarizəni davam etdirəcək



**ABŞ Prezidenti demokrat Co Bayden yenidən bu vəzifəyə seçilmək uğrunda mübarizədən çəkilir. Bu barədə amerikalı siyasi şərhçi Mark Halperin çoxsaylı mənbələrə istinadən "Newsmax" telekanalının efirindən bildirib.**

Onun sözlərinə görə, dövlət başçısı müvafiq bəyanatla avqustun 19–22-də Çikaqoda keçiriləcək Demokratlar Partiyasının milli qurultayında çıxış edəcək. Bəs buna səbəb nədir? Bəzi məlumatlara görə, artan təzyiq, Trampla debatlardakı zəif çıxış Baydeni geri çəkilmək qərarı ilə barışdırb. Bundan başqa, onun partiyasının yüksək rütbəli liderləri, dostları və əsas donorları Baydenin qalib gələ bilməyəcəyinə, yaşı və əqli qabiliyyətinə dair ictimai rəyi dəyişdirməyin mümkün olmadığına inanırlar. Nyu-Yorkda Demokrat Partiyasının əsas donorlarının görüşündə onun seçki kampaniyası üçün maliyyənin dayandırılmasını müzakirə ediblər. Demokratların təxminən üçdə ikisinin Baydenin prezidentlik yarışından çıxmasını istədiyini göstərən sonuncu sorğu Ağ evdə və Konqresdə əks-səda doğurub. Media yazır ki, Bayden Demokratlar Partiyasının təzyiqi altındadır.

Qurultayda ABŞ prezidentliyinə yeni namizədin seçiləcəyi də gözlənilir. M. Halperin əlavə edib ki, Bayden noyabrda keçiriləcək seçkilərə qədər vəzifəsini tərk etmək niyyətində deyil. Şərhçinin mənbələri iddia edir ki, hazırkı dövlət başçısı ABŞ-nin vitse-prezidenti Kamala Harrisi öz varisi kimi dəstəkləmək fikrində deyil. M.Halperin Demokratlar Partiyasından prezidentlik yarışında Baydeni əvəz edə biləcək bir neçə namizədin adını çəkib. Bunlar Kentukki, Pensilvaniya, Kaliforniya və Miçiqan qubernatorları – Endi Beşir, Coş Şapiro, Qavin Nyusom və Qretçen Uitmerdir.

Bundan əvvəl politoloq Sergey Markov bildirmişdi ki, Co Bayden özəl olaraq seçki yarışında namizədliyini geri götürməyə hazırdır. Onun sözlərinə görə, Demokratlar Partiyasından kimin davamçı olacağı sualı olaraq qalır, lakin böyük ehtimalla bu, Kamala Harris olacaq. Bukmeker agentliklərinin məlumatlarına görə Baydenin yerinə ABŞ-ın vitse-prezidenti Kamala Harrisin namizəd olması ehtimalı 45 faiz təşkil edir. Onun namizədliyi irəli sürüləcəyi təqdirdə seçkilərdə qalib gəlmək şansı hazırkı prezidentin şansından iki dəfə yüksəkdir. Amma Harrisin Baydendən də zəif namizəd olduğuna inananlar da az deyil.

Demokratlar Partiyasından fərqli olaraq Respublikaçılar Partiyasında sakitlikdir. 15–18 iyul tarixlərində keçirilən milli qurultayda Respublikaçılar Partiyası Donald Trampın namizədliyini irəli sürüb. O, Respublikaçılar Partiyasının prezidentliyə namizədliyini irəli sürməsini rəsmən qəbul edib. Ölkənin hazırkı administrasiyasının fəaliyyətini tənqid edən Tramp "inanılmaz qələbə" qazanacağına söz verib. Həmçinin keçmiş prezident bu posta yenidən seçiləcəyi halda Ohayo senatoru Ceyms Devid Vansı vitse-prezident təyin edəcəyini elan edib. Bu barədə "Bloomberg" bildirib.

Beləliklə, Tramp üçüncü dəfə ABŞ prezidentliyinə namizəd olacaq. Xatırladaq ki, noyabrın 5-də ABŞ-də yeni prezident seçkiləri keçiriləcək.

***P.ƏFƏNDİYEV***
***XQ***

Yeni tamaşalar

# "İrəvanda yanan çıraq" Bakı səhnəsində

**Görkəmli şair-dramaturq, ictimai xadim Hidayət Orucovun "İrəvanda yanan çıraq" birpərdəli mistik tarixi pyesi əsasında Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrının hazırladığı tamaşa dünən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində paytaxt tamaşaçılarına təqdim edildi.**





Azərbaycan Səfəvi dövlətinin qurucusu və ilk hökmdarı Şah İsmayıl Xətainin İrəvan qalasının valisi Rəvanqulu xana əbədiyyət rəmzi kimi əmanət etdiyi çırağın tarixçəsindən qaynaqlanan əsərdə erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və deportasiyaların anatomiyasına dərindən nüfuz edilib.

Sovet epoxasının sonuna yaxın İrəvanda yaşayıb-yaradan (müəllifin prototipi kimi qavranılan) azərbaycanlı yazıçı Sultan Oğuzun bu mövzuda yazdığı "İrəvanda yanan çıraq" tarixi əsəri quduzlaşmış və xalqımızın Qərbi Azərbaycanda milli varlığına qənim kəsilmiş erməni millətçilərini o dərəcədə hiddətləndirir ki, ona şirnikləndirici tələ qururlar. Düşmənlər Şah İsmayılın İrəvanda yandırdığı çırağı öz adlarına çıxdıqlarına görə həqiqəti tarixi romanda canlandıran yazıçını öz xalqının gözündən salıb sıradan çıxarmaq üçün hiyləyə əl atır, əsəri keçmiş ittifaq dövlətinin ən yüksək mükafatına təqdim edirlər. Mübariz sənətkar düşmənlərin niyyətinin qarşısını kəsmək, tarixi həqiqəti xilas etmək üçün bu plana qarşı çıxır, mükafat almaqdan imtina edir.

Tamaşa boyu Şah İsmayılın ruhu dəfələrlə peyda olub xalqımızı düşmənlərin xəyanətlərinə qarşı ayıq-sayıq və döyüşkən olmağa səsləyir. Milli varlığımıza açıq-gizli təcavüzlərdə erməni qadınlarının şeytani rolu tamaşada incə ştrixlərlə əksini tapıb. Əsərin sonunda İrəvanda söndürülmüş çırağımızın Bakı səhnəsində təntənə ilə şölə saçması Ermənistanın xəyanətkar siyasətinin məğlubiyyətinin timsalı kimi canlanır.

Tarixi prosesin kəsilməzliyi, türk soyuna qarşı erməni düşmənçiliyin zaman-zaman təkrarlanmasının səhnə təcəssümü olan bu mistik-psixoloji pyesə müasir dramaturji üsullarlarla – fasiləsiz hərəkət, mürəkkəb xoreqrafik müşayiət, dünənlə bugünün iç-içə təqdimatı səpkisində verilən quruluş erməni xislətinin dərindən, əhatəli açılmasına xidmət edir.

Çağdaş teatr sənətimizə orijinal səhnə əsəri kimi daxil olan tamaşaya istedadlı rejissor Gümrah Ömər quruluş verib. Əsərin baş qəhrəmanları Sultan Oğuzu Natiq Həziyev, Şah İsmayıl Xətaini Zəki Fətəliyev, rollardan Firəngizi Müdvər Nemətova, Usub kişini Niyaməddin Səfərəliyev, erməni qızları Nairanı Naibə Nemətova, Qarınanı Elnarə Heydərova məharətlə canlandırırlar. Digər rollar da tamaşanın uğurunu təmin edir.

Tamaşa yüksək anşlaqla keçdi. Sonda tamaşaçılar müəllifi və yaradıcı heyəti davamlı alqışladılar.

***Tahir AYDINOĞLU***
***XQ***

# Keramik günəş panelləri indikindən 1000 dəfə güclüdür

**Günəş panelləri geniş ərazi tutur. Yeni kəşf bu problemi aradan qaldırıb. Ekspertlər qrupu misilsiz potensialı və inanılmaz dərəcədə kiçik ölçüləri olan ilk fotoelektrik keramika panelləri yaratmağa müvəffəq olub.**



Bu panellər günəşə yönəlmiş köhnə silikon lövhələrdən 1000 dəfə güclüdür. Yəni onun 1 kvadratmetr səthi adi Günəş panelinin 1 min kvadratmetr səthi qədər elektrik enerjisi istehsal edir. Belə keramika o xassələrinə ilə seçilir və nanostrukturuna görə yüksək performansa malikdir. O, iki mühüm komponentdən ibarətdir. Birinci material yaxşı işıq udma əmsalı ilə, ikincisi isə elektrik keçiriciliyinə görə fərqlənir. Artıq fotoelektrik enerji özünü güclü mənbə kimi sübut edib, hətta nüvə enerjisi ilə rəqabət aparır.

İşığı udan təbəqədə alüminium oksidi və perovskit (Kalsium titanat) nanohissəciklərindən istifadə edilir. Bu iki element əla işıq udma xüsusiyyətlərinə malikdir. Perovskitlər yüksək dayanıqlı alüminium oksidin içərisinə yerləşdirilir, bu da onları istilikdən, nəmdən və mexaniki təsirdən qoruyur.

Günəş işığı keramikaya düşdükdə, perovskit nanohissəciklərindəki elektronlar həyəcanlanır və daha yüksək enerji səviyyəsinə keçir. Elektronlar daha sonra çox səmərəli şəkildə toplanır və keramikadakı kanallar olan alüminium oksidi kristallarına nəql olunur. Daha sonra elektrik cərəyanı yaratmaq üçün səthə çıxarılırlar.

Spesifik struktur keramikaya günəş enerjisini bütün səthində bərabər şəkildə toplayıb saxlamağa və 1500 °C temperatura çatmağa imkan verir.

***PÜNHAN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 151 (30555) 20 iyul 2024-cü il, şənbə

İDMAN

# Azərbaycanda 8 yeni voleybol klubu yaradılıb

**Bölgələrdə voleybolun inkişafı, aşağı yaş qruplarının yaradılması, gənc qız və oğlanların sağlam həyat tərzinin təmin olunması məqsədilə 8 regional voleybol klubu (RVK) yaradılıb.**



Qərar Azərbaycan Voleybol Federasiyasının İdarə Heyətinin iclasında qəbul olunub.

Bununla da, “Sumqayıt RVK” (qız), “Şərqi Zəngəzur RVK” (qız) “Abşeron VK”nın, “Bakı RVK” (qız, oğlan), “Oğuz RVK” (qız, oğlan), “Sumqayıt RVK” (oğlan) “Azərreyl VK”nın, “Naxçıvan VF” (oğlan), “Şərqi Zəngəzur RVK” (oğlan), “Tovuz RVK” (qız, oğlan), “Hacıqabul RVK” (qız, oğlan) “Murov Az Terminal VK”nın, “Gəncə RVK“ (oğlan) “Neftçi VK”nın, “Naxçıvan VF” (qız) “Milli Aviasiya Akademiyası VK”nın, “Gəncə RVK” (qız) isə “Gəncə VK”nın nəzarətinə verilib.

# Stolüstü tennisçilərimiz pley-offda

**İsveçin Malmö şəhərində təşkil olunan yeniyetmə və gənc stolüstü tennisçilərin Avropa cempionatının şəxsi yarışlarında Mərziyyə Nurmətova, Aylin Əsgərova, Adil Əhmədzadə, Rüstəm Hacılı, Onur Quluzadə və Yağmur Məmmədli qrup mərhələsini adlayaraq pley-offa yüksəliblər.**



Mərziyyə Nurmətova - Aylin Əsgərova tandemi isə qoşa yarışlarda 1/32 finalda Almaniya, 1/16 finalda isə Çexiya təmsilçiləri üzərində qələbələrlə 1/8 finala vəsiqə qazanıblar. Stolüstü tennisçilərimiz bu mərhələdə yarışın əsas favoritlərindən sayılan Rumıniya komandası ilə qarşılaşacaqlar. Qeyd edək ki, U-15 və U-19 kateqoriyasında keçirilən Avropa çempionatında məşqçilər Elnur Hidayətzadə, Ramil Cəfərov və Səbinə Əzizlinin rəhbərliyi ilə 12 idmançımız mübarizə aparır. Avropa çempionatı iyulun 21-dək davam edəcək.

# Futbol millimiz UEFA-da 25-cidir

**Futbol üzrə Avrokubokların I təsnifat mərhələsinin cavab oyunlarının üçüncü gününün nəticələrindən sonra UEFA reytinqində dəyişikliklər olub.**




Azərbaycan əvvəlki kimi 25-ci pillədədir. Ölkəmizin aktivində 17,000 xal var. “Zirə”nin evdə “Şerif”ə uduzması (1:2) Azərbaycana xal qazandırmayıb.

Macarıstan Slovakiyanı keçərək 23-cü yerdə qərarlaşıb. İrlandiya Kosovonu, İslandiya Latviyanı, Litva Albaniyanı, Gürcüstan Şimali Makedoniyanı üstələyib. Cədvələ 89,160 xalla İngiltərə başçılıq edir.

*L.QURBANOVA*
*XQ*

TƏBİƏT VƏ BİZ

# Tut ağacının nağılı

**Bakının Hüseyn Cavid prospektində görünüşü ilə çoxlarını özünə cəlb edən qoca b dos ir tut ağacı var. İrigövdəli, qollu-budaqlı ağaca baxanda ömür payının son çağlarını yaşayan insanı xatırlamalı olursan. İşə gedib-gələndə arabir avtobusun pəncərəsindən o ağaca doğru boylanır, xəyalən onunla söhbətləşirdim. Bu günlərdə, sanki, qəribsədim və işdən çıxıb evə gedəndə yolumu o ağacın yanından saldım. Köhnə dostlar kimi görüşdük, dərdləşdik.**

– Salam, nağıl ağac, necəsən?

– Ay əleykümsalam. Nə əcəb kiminsə yadına düşdüm? Mənimlə kəlmə kəsmək istəyən kimdi?

– Bir Allah bəndəsi. Səninlə görüşmək üçün çoxdan fürsət axtarırdım...

– Çox sağ ol ki, məni sayıb gəlmisən. Ancaq, nədənsə, sifətində bir narahatlıq var.

– Elədir. Problemlərim çoxdur...

– Yoxsa işsizsən? Bəlkə təqaüdə göndərirlər səni?

– Doğru tapmısan.

– Başa düşürəm, peşəsini sevən adam üçün çətindir təqaüdə getmək. İllərlə ürəyinin odunu, düşüncələrini bölüşdüyün insanlardan ayrılmaq, bir küncə çəkilib yaşamaq, sonra da unudulmaq… Nəhayət, mənim kimi insanların yolu üstündə gərəksiz bir şeyə çevrilmək… Çox ağırdır.

– Sənin dediklərin məni o qədər də qorxutmur. Ömürdür, gəncliyi də var, qocalığı da. Əgər qocalmaq da gənclik kimi qaçılmazdırsa, təqaüdə çıxdığıma görə niyə təəssüf hissi yaşamalıyam? Atalar demişkən, bir gün gələn, bir gün gedər. Nə qədər ömrümüz qalıb, bunu Allahdan başqa kimsə bilməz. Bu qədər yaşamışam, işləmişəm, məgər azdır?.. Əslində təqaüd yaşına gəlib çatmaq özü xoşbəxtlikdir. Bir də əgər mən öz ağlıma, işgüzarlığıma inanıramsa, təqaüdə çıxdıqdan sonra da bekar qalan deyiləm.

– Bağışla, deyəsən, qəlbinə dəydim. Qocalıqdır da, bir saat belə olursan, bir saat elə - bulud kimi dolub-boşalırsan. Elə ki, günəş batdı, ya Bakı küləyi əsdi, yatağına elə bil qor dolur. Səhərə kimi fikrində nə illah eləyirsən, bu dünyanın dərdi-səri səni yatmağa qoymur. Belə yerdə deyiblər, heyif səndən, ay cavanlıq!

– Bəlkə cavanlığından danışasan, necə cahıl olmusan, neyləmisən? Ömrünə yazılan neçə xoş ayın, ilin olub?

– Vaxtın varsa, lap uşaqlıqdan başlayım. Axı yaşa dolduqca uşaqlıq daha şirin gəlir sənə. O çağlar çəkir səni. Eləcə gözünü yumub qayıtmaq istəyirsən o illərə. Göz önünə gətirdikcə uşaqlıqda yaşadığın günlər öz qoynuna alıb aparır səni. Bəzən qışın şaxtalı, yaxud yayın qorabişirən istisində xatirələrlə ovunur, xumarlanırsan. O çağlar sözlə ifadəsi çətin olan dəmlərdi...

– Gəl sarı simə vurma. Deyəsən, hiss edirsən ki, mən də belə söhbətlərdən həzz alan adamam. Amma biz daha o yaşda deyilik ki… Dünyanın çox üzünü görmüşük. Bir də gözü arxada qalmaq, ötən günlər üçün təəssüflənmək nəyi dəyişər axı? Mən də hərdən həyatda elədiklərimə və ya eləmədiklərimə görə yaşıma yaraşmayan sözlər gətirirəm dilimə. Onda dostlarım danlayır məni. Deyirlər ki, təmiz yaşadığın beş-üç gününü də silmə hesabdan, sabahı fikirləş… Dediklərimə də peşman oluram.

– Sən də məni danlama. Mən hələ eləsinə rast gəlməmişəm ki, haçansa buna bənzər düşüncələri yaşamasın. Bəs gözəl şairimiz, o boyda qələm sahibi Musa Yaqub niyə yazıb:

...Bərədə boş yerə anları sayıb
Ovunu hürküdən ovçular kimi,
Eləmədiklərim yandırar məni.
Yaylaqda çeşməyə məhəl qoymayıb,
Səhrada alışan yolçular kimi,
Eləmədiklərim yandırar məni.
Yox, daha ömrümdə açılmaz o yaz,
Bir qanadım yorğun, birisi pərvaz
Elədiklərimdən yaxam qurtarmaz,
Eləmədiklərim yandırar məni.

Görürsən, necə gözəl yazıb şair?

– Nə olsun, şair sözüdü də, duyğulanıb yazıb. Xalq şairi Musa Yaqubun payız şeirlərini, çılpaq qalmış budaqların üşüməsini, yandırılmış vələsin naləsini oxuyanda az qalır adamın başına hava gəlsin...

– Elə mən də o ağaclardan biriyəm də, niyə qoymursan ürəyimi boşaldım? Bəlkə bir də heç belə söhbət qismət olmadı...

– Yaxşı, danış, ancaq nə məni kövrəlt, nə də özünü. Küçədən keçib gedənlər var. Bayaqdan o təkər yamayanlar göz qoyurlar. Sonra cavanlar bizi ələ salıb gülərlər.

– Oldu. Canım sənə desin, təxminən, səksən-doxsan il əvvəl bu yerlər şəhərin kənarı idi. Camaat burada mal-qara saxlayır, heyvanların südünü, qatığını da iç şəhərdə satırdı. Bəzi yerlərdə üzüm becəriblər. Bakı şanısının dadı-tamı başqa olub onda.

Almanlarla müharibə başa çatandan sonra Bakıda böyük tikinti işləri başlanıb. Çox sayda milli arxitekturalı binalar inşa edilib, stadionlar tikilib, parklar, körpülər salınıb. Bu küçənin tarixi də o illərdən başlayır. Bakı neftinin pulundan, az da olsa, şəhərin abadlaşdırılmasına sərf ediblər. Təxminən indiki 20 saylı məktəb-liseydən üzü bəri dağlı məhəlləsinin bəzi yerlərini söküb, ilk beşmərtəbələri tikiblər. Tikintidə öz adamlarımızla yanaşı, alman əsirləri də işlədiblər. İndiki Texniki Universitetin binasını, onunla bir sirada olan yaraşıqlı beşmərtəbəli yaşayış evlərini də əsirlər tikiblər. Özü də o illərdə həmin məhəllələrdən yad adamın keçməsi nəinki gecə, elə gündüz də qorxulu olub. Ölkə müharibədən çıxmışdı, o qədər ac-yalavac, yetim-yesir, dustaqxanadan qaçan vardı ki… Əhali də “poyok”nan dolanırdı. Mən dayanan yerlərdə tək-tük alçaq evlər olub. Küçəni üzü bəri uzadanda həmin evlər düşüb plana, söküblər. Az sonra küçə boyunca yaşıllaşdırma işinə başlayıblar.

– Səni də onda basdırıblar bura?

– Yox. İlk basdırılan ağacların çoxu quruyub. Yerinə gətirib bizim iqlimə uyğun olmayan ağaclar əkiblər. Həmin ağaclara xüsusi qulluq göstərsələr də, onların ömürləri gödək olub. Çünki o ağaclar Bakı küləyinə davamlı deyillər. Quru iqlimə dözümləri azdır, gərək tez-tez suvarasan. Bir dəfə güclü külək neçəsini sərdi torpağa. Onların boyu ucaldıqca yıxılma təhlükəsi artır. Mən isə boy atdıqca köklərim torpağın daha dərin qatlarına gedir, həm gövdəmi möhkəm saxlayır, həm də su mənbələrini tapıb qol-budağımı qidalandırır. Digər tərəfdən, məhsul verdiyimə görə insanlar, quşlar, həşəratlar daha çox mənim ətrafıma yığılıblar. Məhəllə uşaqları tut yemək üçün qollarım üstünə çıxanda neçə-neçə kövrək budağımı sındırıblar. Lakin barımla onları müəyyən qədər doyuzdurduğuma görə çox sevinmişəm, ağrılarımı unutmuşam... Yan-yörəmdəki ağac dostlarımla özümüz üçün bir dünya qurmuşduq. Küçənin kənarında bir yaraşıqlı titrəkyarpaq qovaq vardı. Küçəni genişləndirəndə o qonşumu mişarlayıb uzatdılar yerə, kökünə də neft tokub yandırdılar. Sonra üstünə asfalt döşədilər. Ona yaxın olan gül kolları da güdaza getdi. Bəzi ağacları da çıxarıb başqa yerə əkdilər, amma onların çoxu qurudu. O qovağın faciəsi hamımız üçün gözdağı oldu. Hər dəfə bu küçədə yenidənqurma və asfaltlama işi aparılanda “Allah, Allah” deyirik. Həmin qovaqdan biri son illərə kimi “Azneft” meydanından bir az aşağı, sahilə yaxın yaxşıca qol-budaq atmışdı. Görənləri heyran edirdi. O ətrafda meh olmayanda belə, həmin ağacın yarpaqları oynaşaraq sərinlik yaradırdı. Buna görə də o qovağı görənlər qaynar havalarda onun kölgəsinə tələsirdilər. Bilmirəm, o ağac yaşayır, ya yox.



Bir müddətdən sonra telefon və kanalizasiya xətləri çəkməyə başladılar, elektrik dirəklərini basdırmaq üçün dərin, enli çalalar qazdılar.

Bu işlər görüləndə də neçə-neçə soydaşım bizimlə vidalaşmalı oldu.

1990-cı ilin 20 yanvar gecəsi rus qoşunları Bakıya soxulanda məhəllə cavanları mənim ətrafımda toplaşmışdılar. Gecəyarısı tanklar bu küçəyə də girdilər və onların arxasınca gedən hərbi maşındakı əsgərlər hər tərəfə atəş açmağa başladılar. Evlərin pəncərələri çilik-çilik oldu, binaların suvağı pətək-pətək oldu. Cavanların bir neçəsi verdi özünü mənim arxama. Güllələr qol-budağımı qırıb tökdü. O güllələrin bir neçəsi hələ də gövdəmdə qalıb. Əlacım olsaydı, o gecə torpaqdan qopub düşmən tanklarının qarşısına uzanardım.

Mən insanlardan çox vaxt təşəkkür əvəzinə zərbə yemişəm. Bütün bunlara baxmayaraq, ağac ömrümü vicdanla yaşamağa çalışmışam və keçmişim üçün heç vaxt utanmıram.

Xatırladım ki, bir azdan yağış yağacaq, əynin də nazikdi, başında da tük qalmayıb, soyuqlaya bilərsən.

- Yağış yağacağını nədən bildin, göyün üzündə elə də bulud yoxdu axı?

- İllərlə müşahidə eləmişəm. Külək bu səmtdən əsəndə yağış gətirir. Bakı havasının öz sirləri var. Bir də, bilməmiş olmazsan, çox illərdə yaz ayları həddindən artıq qarışıq keçir. Nə soyuna bilirsən, nə də isti geyimdə gəzib-dolaşa. İndiki cavanlara nə var, qışın şaxtalı vaxtında əyinlərində nazik gödəkçə, pis çıxmasın, dar şalvar, başları da açıq gəzirlər. Fikirləşmirlər ki, canı cavanlıqdan qorumaq lazımdı.

– Deyəsən, bu iki qolunu da təzə sındırıblar?

– Birini yük maşını qırıb, qonşuya daş aparırdı. Biri də axır günlər bərk külək olanda qırıldı. Öz dərdimə özümdən başqa ağlayan yoxdu. Bax, bu təkər təmir eləyənlər əllərinə keçən çirki, işlənmiş zəhərli yağı tökürlər ətrafıma. Deyən yoxdu ki, bura küçədi, buradan hər cür insan keçir, niyə belə eliyirsiz?

Yağış başladı. Mən islanmayım deyə ağac dostumdan bir neçə metr aralı divarın dibinə çəkilib ona baxırdım. Yağış damlaları onun çılpaq budaqlarına dəyir, qolları ilə üzü aşağıya, gövdəsinə süzülürdü. Bəlkə də qoca tut ağacı mininci dəfəydi ki, yaz yağışında yuyunur, rahatlanırdı. Bu anlarda mənə elə gəlirdi ki, bu yağış suyunun və ılıq yaz günəşinin təsirindən ağacın budaqları yenidən yarpaqlayacaq.

Oradan ayrılanda qoca tut ağacı dedi:

– Mən öz taleyimə çoxdan boyun əymişəm. Şair demiş: “Bu da belə bir ömürdü, yaşadıq”. Ancaq arabir buradan keçəndə söhbət eləməyə macalın olmasa da, mənə sarı boylan. Məni unutma, dostum!

***Səməd MƏLİKZADƏ***

# 2 filmimiz “fəxri ad” alıb

***“Şollerin arxivi”, “Edam günü” və digər filmləri beynəlxalq festivallarda mükafatlar qazanmış ssenarist və rejissor Cəlaləddin Qasımov bu günlərdə daha bir uğura imza atıb.***




Müəllifin böyük mesenat Hacı Zeynalabdin Tağıyevdən bəhs edən 30 dəqiqəlik “100 il şərəfli ömür” bədii-sənədli filmi Kanadanın Toronto şəhərində keçirilən “Geniş Ekranlı Film və Musiqili Video” festivalında “Fəxri ad” mükafatına layiq görülüb. Eyni zamanda, onun quruluşçu rejissor Amil Əlioğlu və quruluşçu operator Murad Nəzərli ilə birlikdə əsəyə gətirdiyi “İkinci ömür” tammetrajlı bədii filmin ssenarisi də eyni mükafata layiq görülüb.

Böyük mesenata həsr olunan filmin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov bildirib ki, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevi geniş coğrafiyada tanıtmaq, həm də onun timsalında ölkəmiz haqqında insanlara geniş məlumatlar verməkdir. Xatırladaq ki, bi ekran əsəri bir müddət əvvəl Lissabon Film Festivalında da fərqlənərək sertifikata layiq görülüb. O zaman film həmin şəhərin Lusofona Universitetində müqavilə üzrə 2 il tədris vəsaiti kimi tələbələrə nümayiş etdirilib.

“Hacı Zeynalabdin Tağıyev harada yaşamasından asılı olmayaraq, soydaşlarının imdadına çatıb, Azərbaycan xalqının maariflənməsi, istedadlı insanların yüksək təhsil alması üçün zəruri tarixi missiya həyata keçirib. Hələ Bakı Dövlət Universitetində oxuduğum illərdən başlayaraq bu görkəmli sahibkar və xeyriyyəçi haqqında çoxlu məlumatlar əldə etmişdim, bir sözlə, onunla bağlı çap olunan bütün materialları yığmışdım. Amma ağlıma da gəlməzdi ki, nə vaxtsa bu sənədlər, kitablar, fotoşəkillər mənim sənədli filmimin qəhrəmanına çevriləcək”, – deyə Cəlaləddin Qasımov bildirib.

O, ekran əsərinin gələcəkdə də müxtəlif beynəlxalq festivallarda nümayişi haqqında düşünür. Hazırda isə “İkinci ömür” filmi üzərində işlər başa çatmaqdadır.

***XQ***



# Aranda yağmursuz, dağlarda yağıntı və duman

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 20-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq.***

Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunu , nisbi rütubət gecə 70-80 , gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° , gündüz 31-36° , dağlarda gecə 14-18°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*2024-cü ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ehtiyatda olan polkovnik-leytenant Əhmədov Ruslan Zülfü oğlunun adına verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*“Royal Estates Group” MMC nizamnamə kapitalının azaldığını elan edir. VÖEN:1405714841.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3130
SİFARİŞ 1574
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00